QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 247 (5719) **28 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır

*Prezident İlham Əliyev Sumqayıtda qaçqın və məcburi köçkün ailələri üçün yeni yaşayış binaları kompleksinin açılışında iştirak edib*



Səh 3

Azərbaycanda güclü idman potensialı formalaşıb



2

Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib



4

Teleaparıcı Evelina Zakamskaya: "İlham Əliyev gələcəyə inamla baxır"



5

Ali Himayəçilər Şurasının tərkibi təsdiq edilib



4

Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilən əməkdaşların üzvlük vəsiqələri təqdim olunub



4

Xankəndinin işğalından 27 il ötür



6

6

"Fransa hökuməti Vidadi İsgəndərlini Azərbaycana təhvil verməlidir"



13

Rusiya Ermənistana verdiyi qazın qiymətini artıracaq



7

"Sənədlər Vidadi İsgəndərlinin dəli olduğunu göstərir"



# Azərbaycanda güclü idman potensialı formalaşıb

## *Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak edib*

***Dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib. Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi.***

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov görülən işlər və burada yaradılan şəraitlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Qeyd edək ki, müasirliyi ilə diqqəti cəlb edən mərkəzdə tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 14 min kvadratmetr olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.







Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin universal zalında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, 1950 tamaşaçı yerlik universal zalda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Burada, əsasən, Fövqəladə Hallar Nazirliyinin idman-sağlamlıq klubu fəaliyyət göstərəcək. İdman-sağlamlıq klubu tərəfindən əsas diqqət nazirliyin hərbi qulluqçularının və dövlət qulluqçularının fiziki hazırlığının yüksəldilməsinin həyata keçirilməsinə yönəldilib. Bundan başqa, klub nazirliyin qurumlarında idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsində iştirak edərək yığma komandaların, ayrı-ayrı idmançıların, məşqçilərin respublika və beynəlxalq əhəmiyyətli yarışlara qatılmasını təmin edir. Klub, həmçinin xilasetmə qurumlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq idman yarışları da təşkil edir. Son illər idman-sağlamlıq klubunun üzvləri müxtəlif yerli və beynəlxalq yarışlarda mühüm uğurlar qazanırlar. İdman-sağlamlıq klubunun təşkilatçılığı ilə hər il "Mübarizlər" yarışı keçirilir. Bu il keçirilən yarışda klubun təmsilçiləri 8-i əcnəbi iştirakçıdan ibarət olmaqla, 45 komanda arasında birinci yeri tutub. Bundan başqa, klubun üzvləri 20-dək çempionatda, o cümlədən dünya və Avropa birinciliklərində, həmçinin digər turnirlərdə uğurla çıxış ediblər. Klubun kişilərdən ibarət voleybol komandası Azərbaycan çempionatında müvəffəqiyyətlə çıxış edərək ikinci yeri tutub. Klubda inkişaf etdirilən əsas idman növləri arasında nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq səmti müəyyənetmə, dağadırmanma, beşnövçülük və çoxnövçülüyə də xüsusi diqqət yetirilir.

İndi Azərbaycanda güclü idman potensialı formalaşıb. Böyüməkdə olan nəsil adlı-sanlı idmançılardan nümunə götürür və onların şərəfli yolunu davam etdirməyə çalışır. Onu da qeyd edək ki, idman-sağlamlıq klubunun üzvləri yalnız nazirliyin əməkdaşlarından ibarətdir. Hazırda klubun 300-dək üzvü var. Klubun üzvləri bu idman qurğusunda cüdo, güləş, karate, üzgüçülük, gimnastika, taekvondo və digər idman növləri üzrə ustalıqlarını artırırlar. Gələcəkdə idman növlərinin sayının artırılması nəzərdə tutulur. İdman-Sağlamlıq Mərkəzinin həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin əməkdaşlarının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Qafqaz Müsəlmanları İdarəsinə maliyyə yardımı göstərilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1374-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1375-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Azərbaycan dövləti qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır

*Prezident İlham Əliyev Sumqayıtda qaçqın və məcburi köçkün ailələri üçün yeni yaşayış binaları kompleksinin açılışında iştirak edib*

***Dekabrın 27-də Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev və "Archico" MMC-nin rəhbəri, layihənin icraçısı Məhəmməd Musayev görülən işlərlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat verdilər.

Şəhərin mərkəzində, Koroğlu prospektində yerləşən kompleksin inşasına 2017-ci ilin martında başlanılıb. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina, o cümlədən səkkizmərtəbəli səkkiz, 15 mərtəbəli dörd bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa edilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə yaradılan şəraitlə tanış oldular.

Bütün bunlar sübut edir ki, Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.











## Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

Dekabrın 27-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı”na uyğun olaraq, Nazirlər Kabinetinin növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasın gündəliyinə iki məsələ - “Azərbaycan Respublikasının 2019-2024-cü illər üzrə kibertəhlükəsizlik strategiyası”nın layihəsinin müzakirəsi” və “İctimai əhəmiyyətli qurumlarda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının tətbiqi vəziyyəti barədə hesabat” daxil edilib.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycan dövlətinin təməl dayaqlarının son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan praqmatik siyasət sayəsində daha da möhkəmləndirildiyini vurğulayan Baş nazir Novruz Məmmədov ötən müddətdə ölkəmizin böyük inkişaf yolu keçdiyini qeyd edib. Baş nazir ölkə rəhbərinin müəyyən etdiyi strateji xəttə əsaslanaraq dayanıqlı inkişafın təmin olunması məqsədilə adekvat addımların atıldığını, kompleks islahatların həyata keçirilməsi ilə makroiqtisadi sabitliyə nail olunduğunu, biznes və investisiya mühitinin xeyli yaxşılaşdırıldığını, sahibkarlığın inkişaf etdiyini, qeyri-neft ixracının artdığını xatırladıb. Bütün bu uğurların əhalinin sosial rifahının yaxşılaşmasına təsir göstərdiyini diqqətə çatdıran Baş nazir Novruz Məmmədov regionun ən inkişaf etmiş ölkəsi olan Azərbaycanda yeni iqtisadi şəraitə uyğun həyata keçirilən rasional siyasətin, sistemli tədbirlərin qlobal risklərin neytrallaşdırılmasına imkan yaratdığını bildirib.

Qarşıdan gələn yeni ildə də ölkəmizdə sosial proqramların icrasının uğurla davam etdiriləcəyinə əminliyini bildirən Baş nazir müasir çağırışlara cavab verən layihələr üzərində işlərin daha da intensivləşdirilməsinin, xüsusən müzakirəyə çıxarılan kibertəhlükəsizlik strategiyasının beynəlxalq standartlara uyğun hazırlanmasının vacibliyini vurğulayıb. Novruz Məmmədov deyib ki, müasir dünya üçün ciddi təhdid olan kibercinayətkarlığın artması, BMT-nin hesabatına əsasən hər il 1.5 milyondan çox insanın internet vasitəsilə edilən cinayətlərin qurbanı olması faktı dövlət idarəçiliyi, bank, nəqliyyat, milli təhlükəsizlik və digər sistemlərin təkmilləşdirilməsini, kibermüdafiə tədbirlərinin genişləndirilməsini zəruri edir.

Sonra gündəlikdə duran məsələlərə dair nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin və maliyyə naziri Samir Şərifovun məruzələri dinlənilib.

Hər iki məsələ ətrafında müzakirələrdə müdafiə naziri Zakir Həsənov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev, Maliyyə Bazarlarına Nəzarət Palatası İdarə Heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov və başqaları çıxış ediblər.

Geniş fikir mübadiləsindən sonra qərara alınıb ki, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadənin mövzu ilə bağlı məruzəsi nəzərə alınmaqla, “Azərbaycan Respublikasının 2019-2024-cü illər üzrə kibertəhlükəsizlik Strategiyası”nın razılaşdırılmış layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilməsi üçün təqdim olunsun.

İkinci məsələ üzrə isə qərara alınıb ki, maliyyə naziri Samir Şərifovun hesabat məruzəsi nəzərə alınmaqla, Maliyyə Nazirliyi və Maliyyə Bazarlarına Nəzarət Palatası aidiyyəti tapşırıqlarla birgə Hesabatdan irəli gələn məsələlərlə bağlı zəruri tapşırıqları özündə əks etdirən Azərbaycan Respublikası Nazirlər Kabineti sərəncamının layihəsi hazırlansın. İclasa yekun vuran Baş nazir Novruz Məmmədov tapşırıqların icrası ilə bağlı aidiyyəti qurumların rəhbərlərinə müvafiq göstərişlər verib, qarşıdan gələn əlamətdar bayramlar - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə səmimi təbriklərini və xoş arzularını çatdırıb.

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə RAGB Dünya Azərbaycanlılarının Həmrəylik Gününü qeyd edib



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Rusiyanın Azərbaycanlı Gənclər Birliyi (RAGB) Moskvada Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə tədbir keçirib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan RAGB İdarə Heyətinin üzvü Emin Hacıyev təşkilatın sədri Leyla Əliyevanın adından iştirakçıları qarşıdan gələn bayramlar münasibətilə təbrik edib. O, təşkilatın 2018-ci ildə gördüyü işlər barədə məlumat verərək vurğulayıb ki, sıraları ildən-ilə genişlənən RAGB yola saldığımız ildə də bir sıra maraqlı layihələr həyata keçirib. E.Hacıyev təşkilatın işində fəal iştirak edən gənclərə təşəkkürünü bildirib.

Akademik Fazil Qurbanov Rusiyadakı Azərbaycan diasporu adından RAGB üzvlərini qarşıdan gələn bayramlar münasibətilə təbrik edib. O, son illər ölkəmizdə əldə olunan nailiyyətlərdən bəhs edib. Akademik Rusiya və Azərbaycan arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə böyük töhfə verən RAGB-nin fəaliyyətini yüksək qiymətləndirib. Vurğulayıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi təşkilatın fəaliyyəti Rusiyada yaşayan və təhsil alan azərbaycanlı gənclərin bir araya gəlməsi, elm, təhsil, yaradıcılıq üzrə layihələrin, həmçinin ictimai təşəbbüslərin reallığa çevrilməsi baxımından əvəzolunmazdır. Rəsmi hissədən sonra milli mahnı və rəqslərimizdən ibarət konsert olub.

## Yeni Azərbaycan Partiyası sıralarına qəbul edilən əməkdaşların üzvlük vəsiqələri təqdim olunub



Yeni Azərbaycan Partiyasının (YAP) ilk özək təşkilatında YAP sıralarına qəbul olunmuş əməkdaşların üzvlük vəsiqələri təqdim edilib. AİI-dən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən rektor Ceyhun Məmmədov YAP-ın dövlətçilik ənənələrinin möhkəmlənməsində əvəzsiz rol oynadığını diqqətə çatdırıb. Rektor ölkəmizdə təhsilə, mədəniyyətə, milli-mənəvi dəyərlərin qorunmasına xüsusi önəm verildiyini bildirib, ümummilli lider Heydər Əliyevin əsasının qoyduğu dövlət-din siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. Dövlətimizin başçısının Sərəncamı ilə AİI-nin yaradılması bu istiqamətdə atılmış ən vacib addımlardan biri olduğunu nəzərə çatdıran rektor institutun ölkəmizdə həyata keçirilən dini maarifləndirmə işlərində fəal iştirak etdiyini deyib.

Tədbirin sonunda YAP sıralarına yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim edilib. Partiya sıralarına yeni qəbul olunanlar bildiriblər ki, bu gün onların həyatında çox əlamətdar hadisə kimi qalacaq. Qeyd edilib ki, inkişaf və müasirlik partiyası olan YAP-ın üzvü olmaq böyük məsuliyyət və şərəfdir. Xatırladaq ki, bu il oktyabrın 30-da AİI-də - Əhməd Cəmil, 41 ünvanında YAP-ın ilk özək təşkilatı yaradılıb.

## Müdafiə Nazirliyi: “Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib”



Ermənistan mətbuatının guya Azərbaycan Ordusunun ön xətt mövqelərində atışma baş verməsi barədə yaydığı xəbərə Azərbaycan Müdafiə Nazirliyindən aydınlıq gətiriblər.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu, Ermənistan tərəfinin öz ordusundakı baş verən xaos, intizamsızlıq və özbaşınalıq hallarını gizlətmək, o cümlədən dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində mülki vətəndaşlarımızı atəşə tutmasından beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa hesablanmış ucuz təbliğatıdır. Bildiririk ki, Azərbaycan Ordusunun mövqelərində heç bir hadisə baş verməyib və bölmələrimiz əməliyyat şəraitinə nəzarət edir.

## AİI Himayəçilər Şurasının tərkibi təsdiq edilib



Azərbaycan İlahiyyat İnstitutunun (AİI) Himayəçilər Şurası yaradılıb və 7 nəfərdən ibarət tərkibi formalaşıb. SİA-nın verdiyi məlumata görə, Şuranın tərkibinə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsi Ərəb filologiyası kafedrasının müdiri, akademik Vasim Məmmədəliyev, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Bakı şəhəri Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini Şahin Bayramov daxil ediliblər.

27 dekabr 2018-ci il tarixdə Himayəçilər Şurasının ilk iclası keçirilib və təşkilati məsələlər müzakirə olunub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şuranın sədri seçilib. Məlumat üçün bildiririk ki, Himayəçilər Şurasının səlahiyyətlərinə Azərbaycan İlahiyyat İnstitutunun strateji inkişaf proqramını təsdiq etmək; İnstitutun fəaliyyət istiqamətlərinə nəzarət etmək; elm-təhsil-innovasiya mərkəzi kimi inkişaf etməsinə; fundamental, nəzəri-metodoloji, pedaqoji-metodik və tətbiqi elmi layihələrinin həyata keçirilməsinə; beynəlxalq əlaqələrinin qurulmasına; AİI məzunlarının işlə təmin olunmasına dəstək vermək kimi məsələlər daxildir.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. İnstitutun yaradılmasının əsas məqsədi Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan dini-mənəvi mühitin qorunub saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksək ixtisaslı kadrların və mütəxəssislərin hazırlanmasını təmin etməkdən ibarətdir.

***Ceyhun Rasimoğlu***

# Teleaparıcı Evelina Zakamskaya: "İlham Əliyev gələcəyə inamla baxır"




"Rossiya 24" kanalında "Mnenie" proqramının müəllifi və aparıcısı Evelina Zakamskaya "Moskva-Bakı" portalının müxbirinə Azərbaycan Prezidenti İlham Əliyevlə söhbətindən, onun ailəsi ilə çoxillik dostluğundan və Yeni il ərəfəsində Bakının gözəlliyindən bəhs edib. Xatırladaq ki, Bakıda dünyaya gələn Evelina Azərbaycan paytaxtını həmişə səmimi sözlərlə xatırlayır.

***-Siz Azərbaycan Prezidentindən beşinci dəfə müsahibə aldınız. Söhbətiniz necə keçdi? İlham Əliyev sizin ilk görüşünüzdən sonra dəyişibmi?***

- Budəfəki görüşümüzün əvvəlində Prezident qeyd etdi ki, biz artıq on ildir tanışıq. Mən ondan ilk müsahibəni məhz 2009-cu ildə götürmüşdüm. Mənə çox xoş idi ki, İlham Heydər oğlu buna diqqət yetirdi (gülümsəyir). Həm zahirən, həm də ünsiyyət baxımından o, heç dəyişməyib. O, həmişə müsahibəyə ciddi və işgüzar tərzdə yanaşır. Axı, bu müsahibə bütöv bir ölkənin taleyüklü məsələləri və onun dünya arenasında mövqeyi ilə bağlıdır.

***-Kadr arxasında nədən söhbət etdiniz?***

-Deməliyəm ki, çəkilişin başa çatmasından sonra İlham Heydər oğlu yerindən qalxmağa tələsmir və biz sadəcə şəxsi və mücərrəd mövzular ətrafında söhbət edirik. Ailə, əhval-ruhiyyə, Bakının havası haqqında...

***-İlham Heydər oğlu Sizə öz ailəsindən bəhs etdi?***

-Bir az. Onun ümumi əhval-ruhiyyəsindən söz düşdükdə, mənə aydın oldu ki, dövlət başçısı kimi şəxsi və ictimai məsələlər onun üçün bir vəhdət təşkil edir. Ölkədə baş verənlər onun şəxsi həyatında da təzahürünü tapır. Bu dəfə mənə elə gəldi ki, Prezident çox sakit və özünəinamlıdır. Onda gələcəyə inam var və əmindir ki, bu gün Azərbaycanda bütün işlər düzgün istiqamətdə davam edir. Dövlət başçısı bir an belə tərəddüd etmirsə, bu, həmin ölkənin bütün vətəndaşları üçün bu çox mühüm əlamətdir.

***- Siz Prezidentin ailəsi ilə tanışsınız?***

- Mən birinci xanım Mehriban Əliyeva ilə tanışam. Mənə, həmçinin ondan iki dəfə müsahibə almaq nəsib olub. Tədbirlərin birində Prezident qızı Leyla xanımla da tanış olmuşam. Əliyevlər ailəsinin bütün üzvləri ictimai fəaliyyətlə məşğul olmaq istedadına malikdirlər və onlar bu işin öhdəsindən layiqincə gəlirlər.

***- Rusiya-Azərbaycan münasibətlərində hansı yeniliklərdən danışdınız?***

- Bilirsiniz, belə məqamlarda deyirlər ki, radikal xəbərlərin olmaması yaxşı əlamət sayılır (gülümsəyir). Dünyanın dəyişən informasiya və siyasi mənzərəsinə rəğmən ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişafından danışdıq. Prezidentlərimiz arasında etimad qorunub saxlanılır. Axı, dünyanın taleyi real şəxsiyyətlərin əlindədir! İnsanların bir-birinə inamının gücləndərək siyasi etimada çevrilməsi çox vacibdir. Biz Rusiya ilə Azərbaycan arasında inteqrasiyadan və iqtisadi proseslərdən, turizm istiqamətində əməkdaşlıqdan danışdıq. Axı, Bakıya turist axınının böyük bir hissəsini məhz Rusiyadan gələnlər təşkil edirlər...

***-Bunun kökündə ölkələrimiz arasında tarixi əlaqələr dayanır....***

-Bəli, lakin təkcə onlar deyil...Ən başlıca aspekt, Prezidentin də söylədiyi kimi, ölkələrimiz arasında dil əngəlinin olmamasıdır. Bu gün Azərbaycanda rus dilinin mövqelərinin qorunub saxlanılmasına çox böyük diqqət yetirilir. Bu, bir bakılı kimi məni sevindirməyə bilməz! Əlbəttə, bu amil əlaqələrimizi də möhkəmləndirir. Dünyanın ən geniş yayılmış dillərindən biri və beynəlxalq ünsiyyət vasitəsi olan rus dilini bilmək təhsil, mədəniyyət və elm məkanını genişləndirməyə imkan verir.

***-Prezident Azərbaycanda ilin yekunlarından ətraflı bəhs edib....***

- Yəqin ki, bu il əldə olunan ən əsas nəticələrdən biri Azərbaycan iqtisadiyyatının neft amilindən asılılığının ardıcıl şəkildə azaldılması və onun şaxələndirilməsidir. O, müəyyən nəticələrin əldə olunduğu və real addımların atıldığı bir sıra inkişaf edən sahələri ayrıca qeyd etdi. Azərbaycan bir neçə il əvvəl seçdiyi yolla irəliləməkdə davam edir və seçilmiş bu xəttə sadiqdir. Bu gün dünya neft bazarında baş verən hadisələr göstərir ki, bu, doğru seçimdir. Qeyri-neft sektorunun inkişafı sahəsində, xüsusən kiçik və orta sahibkarlığın dəstəklənməsində ölkənin diqqəti yenidən Rusiya və Avrasiya İqtisadi Birliyi ilə əməkdaşlıq məkanına yönəlib.

***- Prezidentlə müsahibələrinizin birində şaftalı rəngində don seçmişdiniz. Bu dəfə isə daha açıqrəngli geyimdə idiniz. Siz daha ciddi görünmək istəyirdiniz?***

- Yox, hər şey çox sadədir. Bu mənim saçdüzümüm ilə bağlıdır, o vaxtlar saçlarım uzun idi və həmin rəng onlara yumşaq və romantik çalar qatırdı. Həmin müsahibə 9 may ərəfəsində, bahar fəslində və ona uyğun əhval-ruhiyyədə götürülmüşdü. İndi saçlarım qısadır - ənənəvi kare saçdüzümü. Yeri gəlmişkən, Prezident də buna diqqət yetirdi və dedi ki, məni ilk dəfə gördüyündə də saçdüzümüm belə idi. Geyim tərzim qış mövsümü və buna uyğun əhval-ruhiyyə ilə əlaqədardır. Hər halda, komplimentlər keçən dəfəkindən az olmadı. Çox xoşdur ki, Azərbaycanda qadınların xoşuna gələcək komplimentlər söyləyən nəzakətli kişilərə həmişə rast gəlmək olur.

***-Siz Bakıdan bu günlərdə qayıtmısınız. Orada bayramqabağı ab-hava necədir? Paytaxtda gəzintiyə çıxdınızmı?***

- Bu səfər bizim çəkiliş qrupu üçün xüsusi səmimi şəraitdə keçdi. Azərbaycanda həmişə bizi çox səmimi qarşılayırlar. Bu, artıq ənənə halını alıb. Bu dəfə Prezident Administrasiyası ilə kadr arxasında ünsiyyət vaxtı biz artıq bir ailə olduğumuzu söyləyirdik. Bu, mənim üçün çox əzizdir, çünki Bakı mənim doğma şəhərimdir və oraya getməyi çox sevirəm. Hər dəfə gəldiyimdə, sürücüdən xahiş edirəm ki, Çapayev - indiki Təbriz küçəsində mənim yaşadığım evin yaxınlığından keçsin. İndi həmin ev yoxdur, onun yerində böyük çoxmərtəbəli yeni bina tikiblər, lakin ətrafında köhnə evlər qalır. Ona görə də doğma yerləri asanlıqla tanıyıram.

Moskvadan isti olmağına və bəzən yağış yağmasına baxmayaraq, Bakıda Yeni il əhval-ruhiyyəsi çox yüksəkdir. Bakının işıqlı səması qarın yoxluğunu hiss etdirmir. Küçələr gözəl bəzədilib, şəhər bayramı qarşılamağa hazırlaşır. Azərbaycanın Şaxta babasının olması məni çox sevindirir. Bu, Santa-Klaus deyil, məhz Şaxta babadır. O, eynilə mənim uşaqlıq illərimdə olduğu kimidir! Mən bütün bakılılara, Azərbaycanın hər bir vətəndaşına xoşbəxt Yeni il arzulayıram!

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi məlumat yaydı

Millət vəkili Qüdrət Həsənquliyevin Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə ünvanladığı açıq məktubda qeyd etdiyi məsələlərə bağlı narahatlığını qəbul edirik. Həmçinin, Qüdrət Həsənquliyevin bu cür mövqeyini təqdir edir və yüksək qiymətləndiririk.

DQİDK-dən SİA-ya verilən məlumata görə, Komitə bu məsələni həmişə diqqət mərkəzində saxlayıb və fəaliyyətində prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib. İndiyədək Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də digər aidiyyəti qurumlar, habelə qeyri-hökumət təşkilatları və yerli icra hakimiyyətləri orqanları ilə birgə respublikanın müxtəlif bölgələrində, xüsusən Cənub zonasında mütəmadi maarifçilik tədbirləri həyata keçirib. İnsan hüquqları aylığı çərçivəsində, eləcə də İslamda ailə dəyərləri, qadın hüquqları, erkən nikah və digər mövzularda təşkil edilən çoxsaylı tədbirlərdə ölkəmizin uğurlu inkişafının, cəmiyyətin bütün sahələrində, o cümlədən idarəetmə, təhsil, səhiyyə, qanunvericilik, seçkili orqanlarda qadınlarımızın iştirakının gələcəkdə də təmin olunması üçün qızların təhsil almasının əhəmiyyəti xüsusi qeyd olunub. Belə maarifçilik tədbirləri təkcə rayon mərkəzlərində deyil, qəsəbə və kəndlərdə də təşkil edilib. Elə bir qəsəbə və ya kənd ola bilməz ki, ən azı məscid və ya məktəb səviyyəsində biz maarifləndirici tədbirlər və görüşlər keçirməyək.

Onu da qeyd etmək lazımdır ki, bütün cəmiyyəti narahat edən bu problemin aradan qaldırılması üçün bütün aidiyyəti qurumlar, vətəndaş cəmiyyəti institutları, ailə sosiologiyası ilə məşğul olan mərkəzlər birgə səy göstərməlidirlər. Bu reallığı nəzərə alaraq, sözügedən sahədə apardığımız maarifçilik işlərini qarşıdakı illərdə də yüksək səviyyədə davam etdirmək üçün müvafiq tədbirlər planı hazırlamışıq və gələn ildən icrasına başlayacağıq.

## Azərbaycan səfiri Belarusun xarici işlər naziri ilə görüşüb

Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov bu ölkənin xarici işlər naziri Vladimir Makey ilə görüşüb. Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər 2018-ci ilin yekunu, Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əlaqələrin nəticələri və geniş spektrdə ikitərəfli qarşılıqlı gələcək əməkdaşlıq imkanları müzakirə olunub. 2018-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Belarusa rəsmi səfərinin ölkələrimiz arasındakı münasibətlərin daha da genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunub.



Səfər ərəfəsində keçirilmiş ticarət-iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası komissiyanın iclası və bu iclas çərçivəsində razılaşdırılmış sənədlər səfərin uğurlu keçməsinə öz töhfəsini verib. Nəticədə səfər çərçivəsində ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsinə xidmət edəcək mühüm sənədlər imzalanıb. Söhbət zamanı 2018-ci ildə səfirliyin Belarus XİN-i ilə birgə fəaliyyəti və keçirilən tədbirlər yüksək qiymətləndirilib. V.Makey qeyd edib ki, artıq strateji tərəfdaş olan Azərbaycan və Belarusun münasibətləri daha yüksək müstəviyə qədəm qoyub.

## "Qanunvericiliyə edilmiş dəyişikliklər imkan verəcək ki, sənədsiz mal dövriyyəsinin qarşısı alınsın"

Vergi sistemində uçot və qeydiyyat məsələlərinə ciddi fikir verilməlidir. Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, bunu vergilər nazirinin müavini Sahib Ələkbərov deyib. Nazir müavini bu məsələlərlə bağlı istehsalçılarla mütəmadi olaraq görüşlər keçirildiyini söyləyib: "Onlar təqdim etdikləri mallara görə sənəd verdiklərini, bəzən həmin sənədləri ticarət şəbəkəsində çalışanların almaq istəmədiklərini bildirirlər. Artıq gömrük sistemində də ciddi şəffaflaşdırma tədbirləri görülür və onlar da deyir ki, sərhəddən keçirilən bütün malların sənədləri var. Qanunvericiliyə edilmiş dəyişikliklər imkan verəcək ki, indiyə kimi həyata keçirilmiş tədbirlərlə birlikdə sənədsiz mal dövriyyəsinin qarşısı alınsın".

# Xankəndinin işğalından 27 il ötür

## *Kərkicahanın işğal edilməsi ilə Xankəndinin işğalı başa çatdırılıb*

***Bu gün Azərbaycanın Xankəndi şəhəri və ətraf ərazilər üçün mühüm strateji əhəmiyyətə malik olan Kərkicahan qəsəbəsinin ermənilər tərəfindən işğalından 27 il ötür. 1991-ci il dekabrın 28-də Kərkicahan qəsəbəsinin işğalı ilə Xankəndi və ətraf ərazilərin işğalı başa çatdırılıb. İşğal gününə qədər Xankəndi ərazi vahidliyinin tərkib hissəsi olan Kərkicahanın müdafiəsi, kənd sakinlərindən yerli özünümüdafiə dəstələrindən, yeni yaranmış olan polis və Milli Ordunun bir qrup əsgərləri tərəfindən təşkil olunub.***



Xankəndi istiqamətindən Kərkicahana doğru hücuma keçən erməni silahlılarının istifadəsində olan hərbi texnika və ağır silahların qarşısında bu cür müdafiə dəstələri, son nəticədə, geri çəkilməyə məcbur olublar. Özünümüdafiə dəstələrinin bir müddət erməni silahlılarının hücumlarının qarşısını almaları nəticəsində, dinc əhali qəsəbədən çıxarılıb. İşğaldan əvvəl əhali 350 ailə təsərrüfatı nəzdində 1796 nəfər təşkil edib. İki orta məktəb, bir uşaq bağçası, bir kitabxana, bir klub, bir ATS, on dükan, bir tibb ambulatoriyası, müxtəlif istehsal sahələrinə aid olan beş sex və digər məişət-iaşə obyektləri dağıdılıb. Kərkicahan və ətraf ərazilər uğrunda gedən döyüşlərdə 34 nəfər şəhid olub, 150 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıblar. Şəhid olanlardan 3 nəfər qadın, 2 nəfər isə azyaşlı uşaq olub.

Qeyd edək ki, ölkəmiz təcavüzkar Ermənistanın işğalçılıq siyasəti nəticəsində, 1 milyondan çox soydaşlarımız öz doğma yurd-yuvalarından qaçqın düşsələr də, Azərbaycan dövləti bu insanları ağrı-acıları ilə tək qoymadı, onları düşdükləri ağır vəziyyətdən qurtarmaq üçün tədbirlər həyata keçirməyə başladı. Bütün qaçqın və məcburi köçkünlərin problemini ölkənin əsas problemi elan edən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərə start verildi, çadır şəhərciklərinin ləğvinə başlanıldı, qaçqın və məcburi köçkünlər üçün hər cür şəraiti olan yeni qəsəbələr salındı. Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə tədbirlər həyata keçirilir.

Cənab İlham Əliyevin Prezident kimi imzaladığı ilk sərəncamlarından biri 2004-cü ildə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı ilə bağlıdır. Dövlət Proqramına uyğun olaraq, qaçqın və məcburi köçkünlərin sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. Təqdirəlayiq haldır ki, bu gün ölkədəki bütün qaçqın və məcburi köçkünlər dövlətin təminatındadır, onların problemlərinin həlli isə, dövlət rəhbərliyinin gündəlik diqqət mərkəzindədir. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən fərman və sərəncamlar imzalanıb. Bu il dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verildi. Bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın Sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində, qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İlin sonuna qədər evlərlə və mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bu da, 53 min 500 ailə və ya 300 min qaçqın və məcburi köçkün deməkdir. Məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Bu məcburi köçkünlər dövlət qayğısı ilə əhatə olunublar, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər görülüb. Lakin bu diqqət onların doğma ocaqlarına qayıtmaq arzularını unutdurmayıb, öz dədə-baba yurdlarına qayıtmaq ümidlərini daha da artırıb. Onlar ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal olunan torpaqlarımızın geri qaytarılacağına inanır və qələbə uğrunda savaşa hər an hazır olduqlarını bildirirlər.

***ZÜMRÜD***

---

# "Fransa hökuməti Vidadi İsgəndərlini Azərbaycana təhvil verməlidir"



"Vidadi İsgəndərlinin saxta yollarla "siyasi mühacir" adını alıb, Fransa vətəndaşı qismində Azərbaycan dövlətinin və xalqının iradəsinə qarşı təhdidedici fikirlər səsləndirməsi onun xainliyinin və birbaşa mənəviyyatsızlığının aşkar göstəricisidir". Bu fikirləri SİA-ya "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev sözügedən mövzuya münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, bu gün Azərbaycanda inkişafın, sabitliyin mövcud olduğu bir halda Vidadi İsgəndərlinin iğtişaş və terror çağırışları birbaşa onu idarə edən qaranlıq siyasi dairələrin sifarişidir. Siyasi ekspertin sözlərinə görə, ləyaqət və mənəviyyat hisslərini, vicdanını pula-paraya satan, dövlətinə, xalqına qarşı düşmənçilik mövqeyi sərgiləyən bu ünsür, artıq çoxdan öz çirkin xislətini boynuna alıb: "Məsələ bundadır ki, vaxtilə öz ölkəsində bəlli cinayətlər törətmiş, həmçinin, heç bir siyasi proseslərdə iştirak etməmiş birinin - Vidadi İsgəndərlinin özünü "Avropa demokratiyasının beşiyi" kimi təqdim edən Fransa hakimiyyəti tərəfindən mühafizə olunması heç bir çərçivəyə sığmayan haldır. Bu gün Fransa hakimiyyətinə, bu ölkənin Azərbaycandakı səfirliyinə rəsmi qaydada etirazlar edilməlidir ki, Vidadi İsgəndərli hansı hüquqa əsasən, digər dövlətin vətəndaşı olaraq, başqa bir dövlətin daxili işlərinə qarışır, iğtişaşlar törədəciyini bildirir, üstəlik dövlətimizin atributikalarını, siyasi-ictimai institutlarını təhqir edir? Nəyə görə Fransa hakimiyyəti bu məsələlərə göz yumur və yaxud, baş verənləri görməzlikdən gəlir?".

"SƏS" qəzetinin baş redaktoru əlavə edib ki, artıq uzun müddətdir ki, Fransanın özündə sosial problemlərdən qaynaqlanan "sarı jiletlilər" aksiyaları keçirilməkdədir və bu ölkənin polisi tələblərdə bulunan sadə vətəndaşlarına qarşı ən qəddar üsullar tətbiq edir: "Göründüyü kimi, rezin güllələrlə, gözyaşardıcı qazla, itlərlə, dəyənəklərlə etirazçıları ən ağır şəkildə cəzalandıran, həbslərə atan fransız polisi nədənsə, sığınacaq verdiyi Vidadi İsgəndərlinin başqa dövlətdə - Azərbaycanda iğtişaşlar keçirəcəyi, sabitliyi pozacağı çağırışlarına göz yumur. Eyni zamanda, inanmıram ki, Fransanın müvafiq qurumları onun barəsində xəbərsiz olsunlar. Çünki onun barəsində daha öncələr də fikirlər bildirilib. Lakin təəssüflər olsun ki, bu ölkənin müvafiq dövlət orqanları baş verənlərə susqunluq nümayiş etdirirlər".

"Biz, bu yaxınlarda Fransanın Strasburq şəhərində təşkil edilən yeni il yarmarkasında bir terrorçunun neçə insanın həyatına son qoyduğu xəbərini eşitdik və təəssüf ki, öz ölkəsində terror hadisəsi törədilən Fransa saxta yollarla siyasi sığınacaq verdiyi bir ünsürün qan tökmək, terror törətmək, qeyri-sabitlik yaratmaq ətrafındakı səs-küyünə əhəmiyyət vermir", deyən Bəhruz Quliyev beynəlxalq hüquq normalarından və konvensiyalardan maksimum dərəcədə istifadə edərək, həm də psixiki pozuntusu olan belə şəxslər barədə tələb olunan qərarın verilməsinin vacibliyini vurğulayıb: "Fransa dövlətinin aidiyyəti qurumları bu tələbləri diqqətə almalı, Vidadi İsgəndərlini Azərbaycana təhvil verməli, hüquq mühafizə orqanları isə onun barəsində cinatət işi açmalıdırlar".

***Rövşən NURƏDDİNOĞLU***

---

# On ayda Bakıda işçilərin orta aylıq əməkhaqqı 783,4 manat təşkil edib



Yanvar-oktyabr aylarında Bakı şəhəri üzrə muzdlu işçilərin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 19 min 189 nəfər artaraq 714 min 772 nəfər olub. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, bu müddətdə əvvəlki ilin müvafiq dövrünə nisbətən işçilərin orta aylıq nominal əməkhaqqının səviyyəsi 0,1 faiz artaraq 783,4 manat təşkil edib.

---

# "Sarkisyan taleyindən yüz dəfə pisini Paşinyan yaşayacaq"

"Paşinyanın perspektivi haqda hələ öncədən fikirlərimizi demişdik. Demişdik ki, bu cür imitasion, saxta, maskalı siyasətin, inqilabların müsbət nəticələri olmur. Enində-sonunda fiaskoya məhkumdur. Dediyimiz kimi də oldu". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.

Millət vəkilinin sözlərinə görə, artıq Ermənistan çalxalanır: "Narazı kütlə bir tərəfdən, Köçaryanın tərəfdarları bir tərəfdən, rusmeyilli qüvvələr bir tərəfdən, kənar təsirlər bir tərəfdən Paşinyanı məngənəyə salıb. Adam boğulur, saman çöpü axtarışındadır ki, tutub müvazinətini bərpa edə bilsin. Mitinqlər artım dinamikası ilə gedir. Miqyas daha da çoxalacaq. Sarkisyan hansı taleyi yaşa-



mışdısa ondan yüz dəfə daha artıq betərini Paşinyan yaşayacaq. Çünki bir daha deyirəm: siyasətin "s" hərfindən belə xəbəri yoxdur, siyasi təfəkkür sıfırdır, manevr qabiliyyəti bərbaddır, fors-major durumlarda qərar qəbul etmə istedadından məhrumdur. Ancaq artistlik eləməklə isə kütləni idarə etmək olmaz. Üstəlik, seçki öncəsi elə yekə-yekə vədlər verib ki, onların da altından çıxa bilməyəcək. Ona görə mitinqlər hər zaman aktual və gözlənilən idi. Yıxacaqlar, aşırdacaqlar Paşinyanı. Bu an məsələsidir. Heç deyim, proses uzun da çəkməyəcək. Özü qaçacaq. Yəni, elə təpəri də yoxdur ki, müqavimət göstərsin. Mitinqdəki elektoratın kəmiyyəti bir azca artan kimi artıq Paşinyan meydanda olmayacaq. Ermənistan xaosa məhkum və layiqdir. Yaramaz siyasət və qondarma təfəkkürün sonucu budur".

***Ceyhun Rasimoğlu***

# "Sənədlər Vidadi İsgəndərlinin dəli olduğunu göstərir"

***Son vaxtlar Avropada gizlənən "siyasi mühacir"lər deyilən qrup fəaliyyətini daha da genişləndirməklə, ölkəmizə və xalqını sevən, dövlətinə bağlı olan insanların şəref və ləyaqətini alçaldan videolar paylaşır, statuslar yayırlar. Xüsusilə də, Vidadi İsgəndərli, Orduxan Teymurxan, Məhəmməd Mirzəli, Qurban Məmmədov, Tural Sadıqlı və bu kimi digər tör-töküntülərdən ibarət olan ünsürlər əməlləri və fəaliyyətləri ilə sifarişlər yerinə yetirdiklərini nümayiş etdirirlər.***

Söhbət etdiyimiz müsahiblərimiz Fransa dövlətinin və bu dövlətin aidiyyatı orqanlarının Vidadi İsgəndərlinin terrora və zorakılığa çağırışlarına etinasız yanaşmasının Fıransanın bəzi qaranlıq dairələrinin bu məsələdə rolu olmasına şübhələr yaradan amil olduğunu bildirdilər.

## Millət vəkili Rauf Əliyev: "Vidadi İsgəndərlinin başı işləmir, anormal adamdır"



- Mən Azərbaycan-Fransa Parlamentlərarası Dostluq Qrupunun üzvüyəm və orda olmuşam. Fransada bizi istəyən də, istəməyən də var. Elə fransız bələdiyyəsi var ki, gedir Dağlıq Qarabağa, amma eləsi də var ki, ona etiraz edir və Azərbaycanı dəstəkləyir. İndi hansısa Vidadi İsgəndərli gedib orda hansısa nalayiq sözlər deyir, kimlərsə də onu dəstəkləyir. Bu, o demək deyil ki, bütün Fransa onu dəstəkləyir. Vidadi İsgəndərli Azərbaycanda da işləyib, özünü çirkin əməlləri ilə tanıdıb. Orada da eyni ampluada çıxış etməkdədir. Anormal düşüncəyə malik olan V.İsgəndərli başa düşməlidir ki, orda oturub söyüş və təhqir dolu videolar paylaşmaqla ağalarının rəğbətini qazana və qəpik-quruş ala bilər, amma burada əhalinin nifrətini qazanır. Normal adam belə şeylər eləməz. Mən V.İsgəndərlinin əməllərini pisləyirəm. Onun ölkə rəhbərliyinin əleyhinə ittihamlar səsləndirməsinə qəti etirazımı bildirirəm. Belə şeylər eləmək qəti şəkildə olmaz. O özün belə aparırsa, deməli, onun başı işləmir, anormal adamdır. Başa düşmürlər ki, onlar bu işləri göründə, buna bizim düşmənlərimiz də baxır. Onlar bunu dərk eləmir. Yəni onlar dərk etmir ki, buna ermənilər də baxır. Bununla, V.İsgəndərli özünü bir düşəm kimi aparır.

## "Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı: "Vidadi İsgəndərli ermənidən də betərdir"



- Avropanı özlərinə yaşayış yeri seçən "siyasi mühacirlər" deyilən insanların dövlət və milli maraqlarımıza qarşı şər-böhtan xarakterli fikirlər səsləndirmələri, haqlı olaraq, ölkə əhalisində nifrət və qəzəb hissi yaradıb. Bu cür əməlləri ilə onların azərbaycanlı olmalarına şübhələr yaradır. Çünki bu ölkənin çörəyini yeyib - suyunu içən insan düşmən dəyirmanına su tökən fikirlər söyləyə bilməz. Onlar tək deyillər. Kim Azərbaycanın əleyhinədirsə, Avropadakı müəyyən qaranlıq dairələr dərhal ona maddi və mənəvi dəstək göstərir. Əslində, bu, Avropanın mahiyyətini ortaya qoyur. Mən diaspor fəaliyyəti ilə məşğul olan bir təşkilat rəhbəri olaraq, illərdi bunu Avropadan görürəm. Azərbaycana qarşı radikal düşmən mövqeyində, düşməndən daha radikal bir mövqedə duran kim varsa, Avropa hər zaman onu himayə edir. Təkcə Fransa deyil, Almaniya da, Hollandiya da elədir, yəni "söyüş qrupu" deyilən "siyasi mühacirlər"ə himayədarlıq edirlər. Orduxan Teymurxan və Vidadi İsgəndərli kimilər özbaşına deyillər, onlara dəstək verən anti-Azərbaycan qüvvələr var. V.İsgəndərlinin söyüş ritorikasına daha çox yer ayırması, onun ermənidən betər olduğunu göstərir. Dövlətin atributların təhqir etmək olarmı? Təhqir elementlərindən geninə-boluna istifadə edib, sonra necə demək olar ki, "mən azərbaycanlıyam"? Prezident bu ölkənin atributlarından biridir. Prezidentin ailə üzvlərini və özünü təhqir etmək olarmı? Bunu sənə şərait yaradan ölkədən edirsən. Gör hansısa dənə fransız gəlib Azərbaycanda və yaxud başqa bir ölkədə oturub Fransanın atributları və yaxud onun dövlət başçısını bu səviyyədə təhqir edə bilərmi? Əlbəttə ki, eləməz. Baxın, ermənilər də "siyasi mühacirlər" kimi Azərbaycana qarşı düşmənçilik edirlər. Bu baxımdan, demək olar ki, bunlar ermənidən də betərdirlər. Yəni elələri var ki, ermənidən betər Azərbaycanın əleyhinə çıxırlar.

## Politoloq Qabil Hüseynli: "Vidadi İsgəndərli mütləq layiq olduğu cəzanı almalıdır"



- Ümumiyyətlə, siyasətlə məşğul olan adamın siyasi mədəniyyəti olmalıdır. Söyüşlə məşğul olan adamın nə siyasətə, nə də insanlığa aid etmək mümkün deyil. Söyüş ritorikasına daha çox yer ayıran, insanların şərəf və ləyaqətini təhqir edən V.İsgəndərlinin hərəkətlərini qətiyyətlə, hiddətlə pisləyirəm. V.İsgəndərli haqqında mövcud qanunvericiliyə uyğun olaraq, tədbirlərin görülməsi lazımdır. Başqalarının şəxsiyyətini təhqir etmək, özü də çox səviyyəsiz və tərbiyəsiz bir formada təhqir etmək insan haqları məsələsinə aidiyyatı yoxdur. Hesab edirəm ki, V.İsgəndərlinin bu cür yersiz hərəkətləri davam edə bilməz. O, mütləq cəzasını almalıdır. V.İsgəndərli və digər "söyüş qrupu"nün üzvləri bu cür səviyyəsiz hərəkətlər etməklə həm xaricdə, həm də daxildə özlərini tamamilə gözdən salırlar. Çünki heç bir vətəndaş xaricdə oturub, öz ölkəsi haqqında xoşagəlməz ifadələr işlədə bilməz. Belələri varsa, deməli, onların milli mənsubiyyətində qarışıqlıq var.

**GÜLYANƏ**

# YAP Nəsimi rayon təşkilatının gənclər birliyi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbir keçirib

***Dünən Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının gənclər birliyi Bakı Musiqi Akademiyasında 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə tədbir keçirib. Tədbirdə, öncə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və sonra partiyanın 20-yə yaxın prezident təqaüdçüsü olan gənc üzvünün ifasında konsert proqramı təqdim edilib.***



Tədbirdə çıxış edən Bakı Musiqi Akademiyasının tədris işləri üzrə birinci prorektoru Nərminə Quliyeva ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan danışıb.

Tədbirdə çıxış edən YAP Siyasi Şurasının üzvü, partiyanın Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı bildirib ki, ölkəmizdə gənclər siyasətinin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirib, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verib. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət müstəqil dövlətimizin fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərimiz çalışdıqları sahələrdə, öz bilik və bacarıqlarına uyğun fəaliyyət göstərməklə, dövlətimizin başçısına, eləcə də, Ümummilli Lider Heydər Əliyevə sadiqliklərini nümayiş etdirirlər.



Tədbirdə Yeni Azərbaycan Partiyasına yeni üzv qəbul olunan bir qrup şəxsə üzvlük vəsiqələri təqdim edilib.

Sonra tədbir bədii hissə ilə davam etdirilib.

***Nəzakət Ələddinqızı***



# Məktəb proqramı niyə lazımsız dərs yükünə çevrilib?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Son vaxtlar orta məktəblərdə uşaqların dərs "yükündən", daha doğrusu, dərs proqramından gileyləndikləri, aşağı siniflərdə təhsil alan uşaqların həddindən çox dərs proqramı ilə "yükləndikləri" barədə giley-güzar eşidilir. Bir məsələni xüsusi ilə qabardacam. İndiki uşaqlar məktəb cığırına çıxanda, sanki Sovet-alman müharibəsinə yollanan əsgərləri xatırladırlar. Müxtəlif kitab- dəftərlərlə dolu ağır çantalar 1-ci və 2-ci sinif şagirdlərinin balaca çiyinlərindən aşağı sallanır. Axı, bu körpə zehni bu yekəlikdə cədvəl proqramlarını, ağır dərs yükünü qaldıracaq miqyasda zehniyyətə malik deyil. Bunları fiziki və əsas da zehni baxımdan bu dərəcədə yorub əldən salmağın kimə xeyri var?***

Onları elə balacalıqdan, beyninin yenicə sürət götürdüyü bu mərhələdəcə "yandırmaq", zehni qavrayış sürətini keyfiyyətsiz telefonlar kimi dondurmaq pedaqoji cinayət deyil, bəs nədir? Sovet təhsil sistemində birinci və ikinci sinif şagirdləri mərhələli şəkildə, zehni imkanları nəzərə alınaraq fənn proqramları ilə "yüklənirdilər" ki, qavrayış imkanlarına zərər dəyməsin. Bu, pedaqoji baxımdan, olduqca önəmli faktordur. Bəyəm, Sovet təhsil sistemi Nuh dövründən qalmamışdı ki? Olduqca peşəkar və səviyyəli pedaqoqlar hazırlayırdılar bu sistemi quranlar.

Ən maraqlısı isə odur ki, orta məktəblərdəki dərs proqramları bir yana qalır, uşaqlar dördüncü-beşinci siniflərdən başlayaraq əlavə dərs almaq üçün xüsusi müəllimlərin "hüzuruna" yollanırlar. Niyə?-Səbəb sadədir: Daha geniş bilik qazanmaq və 11-ci sinfi bitirdikdən sonra ali məktəblərə qəbul olmaq üçün! Bəs orta məktəbdə öyrəndikləri, balaca siniflərdən başlayaraq zərif çiyinlərinə yüklədiyimiz ağır kitab-dəftərlər, fənn proqramları nə işə yarayır?,- Cavab bəllidir: Heç nəyə!

Belə olan halda, təbii ki, məcbur olub ali məktəblərə hazırlaşmaq üçün uşaqlar üz tutur "repititorun" yanına. Valideyn də hər müəllimə, azından, 50-80 manat "hörmət" etməli olur. Həm uşağın məktəb ləvazimatına, geyiminə xərclə, həm də "repititor" üçün bu qədər pul "tərlə". Lazımsız məktəb proqramı da lazımsız dəyirman kimi öz-özünə dövr eləyir. Valideyni anlamamaq mümkün deyil, əslində. Çünki bu uşaqlar böyüyüb abituriyent olduqdan sonra, ali məktəb imtahanlarında bir də ayılırlar ki, bəs məktəb proqramında oxuduqları fənlərdən, aldıqları dərslərdən bu imtahan suallarında hec 30 faiz civarında belə sual-cavab düşməyib. Getdi 1-ci sinifdən 11-ci sinfə qədərki təhsil və əziyyət işinin dalınca!

Qəbul imtahanlarındakı suallar akademik və universal həddə hazırlanır. Sanki bunlar orta məktəbi bitirib ali məktəb tələbəsi olmaq üçün deyil, hansısa dövlət qulluqçusu olmaq üçün imtahanlara girirlər. Hətta bir az da irəli gedib, deyərdim ki, akademik səviyyədə suallar çıxır qabaqlarına. O suallar ki, orta məktəbin tədris proqramında onların izinə-tozuna da rast gəlməyib bu yazıq abituriyent. Daha cox bilik qazanmaq gözəldir, bununla hər kəs razılaşar, şübhəsiz. Amma ali məktəbə qəbul imtahanlarında abituriyentin bilik şkalasını akademik səviyyədə yoxlamaq nə dərəcədə real və düzgündür? Uşaq akademik yoxlanışa yox, orta məktəbdə aldığı tədris proqramına və mənimsədiyi biliklərə arxalanıb, ali məktəb imtahanına gəlib çıxır.

Əgər bu uşaqlar orta məktəb proqramında öyrəndiklərini qəbul imtahanlarındakı sual cədvəlində çıraqla axtarıb tapa bilmirlərsə, 11 il, həftədə 5-6 gün ayaq döyüb o pillələri aşağı-yuxarı düşüb-qalxdıqlarına görə ali məktəb imtahanlarında peşmanlıq həddində təəssüflənirlərsə, o zaman hazırkı orta məktəblərdəki tədris proqramı barədə həyəcan təbili çalmağın artıq vaxtı keçib gedir. Orta məktəb proqramı qəbul imtahanında işə yaramırsa, o zaman kimə lazımdır, bu proqram? Zərif, balaca çiyinləri mürəkkəb dərslik və cədvəllərlə yükləmək, qavramaqda çətinlik çəkdikləri universal proqramlarla onların körpə zehinlərini "öldürmək" bilik deyil, cənablar!

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

28 dekabr 2018-ci il

# Prezident İlham Əliyevin müasir dünyanın qlobal tələblərinə uyğun siyasi kursu son dövrlərdə diaspor hərəkatını daha da gücləndirib

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun yap.org.az-a müsahibəsi*

***- Fuad müəllim, qarşıdan 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Hazırda beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi bir şəraitdə dünyada yaşayan azərbaycanlıların həmrəyliyinin daha da gücləndirilməsi aktual məsələlərdən biridir. Bu mənada, dövlətimizin diaspor siyasətinin əhəmiyyəti haqqında fikirlərinizi bilmək istərdik...***

- 1993-cü ildə Ümummillli lider Heydər Əliyevin, xalqın təkidi ilə, yenidən hakimiyyətə qayıdışından sonra xaricdə yaşayan azərbaycanlılarla sistemli iş aparılması, diaspor quruculuğunun dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsi bu sahədə xüsusi dövlət qurumunun yaradılması ilə nəticələndi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən 2002-ci ilin 5 iyulunda "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzalandı. 2008-ci ildə isə ölkə başçısı cənab İlham Əliyevin Sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi yaradıldı. Bu illər ərzində azərbaycanlıların təşkilatlanması istiqamətində müəyyən işlər görüldü, türkdilli ölkələrin diaspor təşkilatları ilə əlaqələr quruldu və birgə fəaliyyət strategiyası qəbul olundu. Dünyada gedən qloballaşma prosesi, xalqlar arasında sürətli inteqrasiya meyillərinin güclənməsi bu gün diaspor quruculuğu sahəsində daha effektiv işlər görməyi qaçılmaz edir. Əsasını Ümummilli lider Heydər Əliyevin qoyduğu diaspor siyasətinin mahiyyəti azərbaycanlıların tarixi vətənləri ilə əlaqələrini inkişaf etdirməkdən, xaricdə yaşayan azərbaycanlıların mədəni-siyasi hüquqlarını müdafiə etmək və eyni zamanda diasporun potensialından faydalanaraq dövlətlərarası münasibətlərin inkişafına töhfə verməkdən, ölkəmizin milli maraqlarının təbliğinə və siyasi arenada təsir gücünün artmasına şərait yaratmaqdan ibarət idi. Mövcud vəziyyət belə deməyə əsas verir ki, Azərbaycan bu məqsədlərə çatmaq üçün xeyli yol qət edib.

Müasir dövrdə diaspor anlayışı beynəlxalq münasibətlərin vacib elementlərindən birinə çevrilib. Yeni dünya düzəni və qloballaşma prosesləri diaspor siyasətinin tarixi məzmununu dəyişməkdədir. İndi diasporlar yalnız müəyyən bir dövlətin ərazisində məskunlaşmış eyni milli mənsubiyyətli insanların yaratdıqları ictimai hərəkat və ya birlik kimi nəzərdən keçirilmir, onlar həm də təmsil etdikləri xalqın milli maraqlarının fəal müdafiəçisi kimi tanınır. Diaspor təşkilatları fəaliyyət göstərdikləri ölkələrin ictimai-siyasi həyatının vacib komponentinə çevrilir, xarici siyasətə təsir imkanları əldə edir, dövlətlər arasında münasibətlərin inkişafında mühüm rol oynayır. Diasporların dövlətlər arasındakı münasibətlərə təsiri onların daxili mahiyyəti, özünəməxsus xarakteri, konkret bir mədəniyyətin daşıyıcısı olması, təmsil etdiyi millətin, xalqın, yaxud etnosun tarixi mənafelərini ifadə etməsi ilə bilavasitə bağlıdır. Çünki dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq hər bir xalqın diasporu yalnız özünün hüquq və azadlıqlarının qorunmasına çalışmır, həm də milli mədəni irsini təbliğ etməyə, tarixi Vətəni haqqında rəy formalaşdırmağa, onun rifahı və inkişafına dəstək olmağa səy göstərir. Bu, icma və birliklərin əhatəsində olduğu xarici mühitin təsiri altında formalaşmır, diasporun özünəməxsus keyfiyyəti olub onun mentalitetinin, tarixi yaddaşının, milli şüurunun, "milli mənlik" qürurunun təzahürü kimi özünü göstərir. Lakin dünyanın movcud diaspor ənənələri göstərir ki, bu birliklərin fəaliyyəti yalnız milli-mənəvi və mədəni dəyərlərin qorunması və milli



varlığın təsdiqi dairəsi ilə məhdudlaşmır. Ölkəsindən kənarda yaşayan milli icmaların siyasi-iqtisadi mənafelər baxımından öz dövlətinin və xalqının maraqlarına xidmət etməsi, dövlətlərarası münasibətlərə təsir göstərməsi də vacib faktor kimi beynəlxalq siyasətdə aktiv şəkildə tətbiq edilməkdədir.Diasporların dövlətlər arasındakı münasibətlərin inkişafı haqqında danışarkən, Azərbaycanın bu sahədəki təcrübəsinə diqqət yetirmək yerinə düşür. XX yüzilliyin sonlarında dünyada baş vermiş mürəkkəb ictimai-siyasi proseslər, Sovet İttifaqının süqutu, birqütblü dünyanın yaranması, yeni müstəqil dövlətlərin meydana çıxmasından sonra diaspor quruculuğu işinin əhəmiyyəti daha da artmağa başladı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra diaspor quruculuğu dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildi. Dövlət müstəqilliyini əldə etdikdən sonra,Azərbaycan qısa vaxtda milli dövlət quruculuğu, iqtisadi, demokratik inkişaf, beynəlxalq aləmdə tutduğu mövqeyinə görə regionun lider dövlətinə çevrildi. Bu inkişaf həm də Azərbaycan diasporunun yaranması, onun formalaşması, təşkilatlanması, mütəşəkkil qüvvəyə çevrilməsinə şərait yaratdı. Əldə edilmiş nailiyyətlər, eyni zamanda dünya azərbaycanlıları arasında həmrəyliyin güclənməsi, ölkəmizin milli maraqları ətrafında sıx birləşməsi üçün güclü zəmin formalaşdırdı. Soydaşlarımızın tarixi Vətənlə əlaqələrini daha da gücləndirmək istiqamətində Ümummilli liderin atdığı mühüm addımlar tədricən nəticəsini verməyə başladı və 2001-ci ilin noyabrında Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi kimi tarixi hadisə baş verdi. Dünya azərbaycanlıları ilk dəfə olaraq Bakıda bir araya gəldi, qarşıda duran vəzifələri, problemləri, onların aradan qaldırılması yolları müzakirə edildi. Ümummilli liderin diaspor quruculuğu sahəsində ardıcıl olaraq həyata keçirdiyi uzaqgörən siyasəti nəticəsində Azərbaycan diasporunun tarixində yeni bir mərhələ başladı.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin müasir dünyanın qlobal tələblərinə uyğun siyasi kursu son dövrlərdə diaspor hərəkatını daha da gücləndirib, xaricdəki Azərbaycan icmaları arasında əlaqələr möhkəmlənib, haqq səsimizin dünyaya çatdırılması, həmvətənlərimizin hüquq və azadlıqlarının müdafiəsi, həmçinin ölkələr daxilində siyasi proseslərə, az da olsa təsir göstərilməsi istiqamətində bir sıra nailiyyətlərə imza atılıb. Bəzi ölkələrin diaspor təcrübəsinə baxdıqda görünən odur ki, diaspor ilə sarsılmaz bağlar qura bilən ölkələr, beynəlxalq arenada daha güclü tərəfə çevrililər. Ölkəmiz də, məhz bu hədəfə doğru irəliləyir.Qeyd etməliyik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirərək diaspor quruculuğu işinin keyfiyyətcə yeni müstəviyə qaldırılması istiqamətində önəmli addımlar atmaqdadır.

Bu istiqamətdə Azərbaycanı layiqincə təmsil edən, ölkəmizdə və dünyada xeyriyyəçi, humanist fəaliyyəti ilə seçilən, həmçinin, mədəniyyətə, idmana qayğı ilə yanaşan, elm, təhsil, səhiyyə sahələrində respublikada və beynəlxalq miqyasda ictimai-siyasi xadim kimi böyük işlər görən birinci xanım, Azərbaycan Respublikasının birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna rolu xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, ölkəmizin üzləşdiyi təcavüzkarlıq faktının ifşası istiqamətində məqsədyönlü və ardıcıl iş aparır. Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaradılan internet portalı (http://www.justiceforkhojaly.org), müxtəlif dillərdə hazırladığı "Qarabağ həqiqətləri" adlı bukletlər dünya ictimaiyyətinə problemin kökləri, səbəbləri haqqında kifayət qədər məlumat çatdırıb.

Daha dəqiq desək, Fondun dəstəyi ilə 2007-ci ildən başlayaraq hər il müxtəlif ölkələrdə Xocalı faciəsinə həsr olunmuş konfranslar, tədbirlər keçirilir, bu istiqamətdə xüsusi təbliğat aparılır. Aksiyalarda "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər, müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar və "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabı təqdim olunur.Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlayan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə atılan ən önəmli addımlardandır. Məhz bu kampaniyaya start veriləndən sonra bir sıra ölkələrin parlamentləri Xocalı soyqırımının tanınması ilə bağlı qərarlar qəbul edib, ayrı-ayrı dövlətlərdə Xocalı soyqırımı abidələri qoyulub.

Bu gün Azərbaycan diaspor təşkilatlarının fəaliyyətində daha bir yeni mərhələ başlayıb. Müasir dünyanın çağırışları yeni diaspor strategiyasının hazırlanmasını zəruri etdiyindən Diasporla İş üzrə Dövlət Komitəsinin yeni "Strateji Yol Xəritəsi" işlənib hazırlanıb və icrası istiqamətində addımlar atılır.

***- Fuad müəllim, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri təyin olunduqdan sonra Szin ilk işlərinizdən biri xaricdəki diaspor nümayəndələri ilə görüşlərin keçirilməsi oldu. Bu görüşlərdən çıxan nəticələr nədən ibarətdir?***

- Dövlət Komitəsi tərəfindən ölkə başçısının tapşırıqlarına, Komitənin Əsasnaməsinə və digər normativ-hüquqi sənədlərə uyğun olaraq dünya azərbaycanlılarının birləşdirilməsi, soydaşlarımızın fəaliyyətinin koordinasiya edilməsi, diaspor hərəkatının gücləndirilməsi, milli-mədəni irsin təbliği, işğal edilmiş ərazilərimizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və həmvətənlərimizin xarici ölkələrin ictimasi-siyasi həyatında fəal mövqe tutması, siyasi-iqtisadi təsir imkanlarına malik olması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanın diaspor təşkilatlarının dayanıqlı əsaslar üzərində qurulması və daha güclü təməllərlə fəaliyyət göstərməsi üçün dövrün tələblərinə uyğun yeni strateji istiqamətlər müəyyənləşdirilib. Diasporla İş üzrə Dövlət Komitəsinə sədr təyinatımdan sonra strateji hədəflərə yönələn yenilənmiş fəaliyyət proqramı çərçivəsində artıq intensiv tədbirlərin həyata keçirilməsinə başlanılıb. Türkiyə, Fransa, Almaniya, Rumıniya, Ukrayna, Rusiya, Gürcüstan, İsveçrə, İsveç, Hollandiya, Çin və Amerika Birləşmiş Şatatlarına səfərlər edilib, soydaşlarımız və diaspor fəalları ilə görüşlər keçirilib, onların problemləri öyrənilib və həlli istiqamətində əməli tədbirlər görülür. Diaspor təşkilatları arasında birliyin təmin edilməsi, soydaşlarımızın vahid məqsəd ətrafında birgə fəaliyyətinə nail olunması məqsədilə Almaniya, Fransa, İsveçrə, İsveç, Hollandiya, Skandinaviya və Amerika Birləşmiş Ştatlarında Azərbaycanlıların Koordinasiya Şuraları təsis edilib.Eyni zamanda, bu ölkələrdə Azərbaycanın diaspor fəaliyyətinin səmərəliliyinin artırılması və tədricən güclü lobbiçilik ənənələrinə keçid istiqamətlərinin müəyyənləşdirilməsi üçün Komitə rəsmilərinin həmin ölkələrdə tarixi əhəmiyyət kəsb edən bir sıra görüşləri keçirilib. Bu gün dünyanın təqribən 50 ölkəsində 556 diaspor təşkilatı mövcuddur. Ümumiyyətlə isə son 8 ayda Dövlət Komitəsinin nümayəndə heyəti 11 ölkədə diasporumuz ilə görüşlər keçirib, onların vəziyyəti ilə yerindəcə tanış olunub və fikir mübadiləsi aparılıb.

Dünyada yaşayan azərbaycanlı gənclərin birliyinin daha da möhkəmləndirilməsi yolunda atılmış növbəti addımlardan biri bu ilin avqust ayında 37 ölkədən 140 gəncin iştirakı ilə"Cümhuriyyətin 100 illiyi" Diaspor Gənclərinin I Yay düşərgəsinin keçirilməsi və burada "Azərbaycan Diaspor Gəncləri" şəbəkəsinin təsis edilməsidir. Bir sözlə, soydaşlarımızın yaşadıqları dövlətlərin cəmiyyətinə dərindən inteqrasiya olunması, həmin ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında getdikcə daha fəal rol oynaması zəruridir. Bunlar respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsinə, Azərbaycan reallıqlarının dünyaya daha yaxşı təqdim olunmasına, zəngin və çoxşaxəli mədəni irsimizin təbliğinə əlverişli şərait yaradır. Eyni zamanda, dünyanın müxtəlif şəhərlərində artıq fəaliyyətə başlayan, gələcəkdə digər ölkələrdə də açılması nəzərdə tutulan Azərbaycan mədəniyyət mərkəzləri və Azərbaycan dili məktəbləri diasporumuzun imkanlarını daha da artırır. Azərbaycan dövlətinin dəstəyi, ölkə başçısı cənab İlham Əliyevin xaricdə yaşayan soydaşlarımıza qayğısı və bu istiqamətdə verdiyi tapşırıqlar diaspor təşkilatlarımızin bundan sonra da öz səylərini daha da gücləndirəcəyinə böyük ümidlər yaradır. Bir məsələni də xüsusi qeyd etmək istərdim ki, müxtəli ölkələrdə keçirdiyimiz görüşlərdə azərbaycanlıların birliyinə təkan verildi, Azərbaycan dövlətinin xaricdəki azərbaycanlıara diqqət və qayğısıbir daha təsdiqləndi, Azərbaycana dost diaspor təşkilatları ilə Azərbaycan diaspor təşkilatları, eyni zamanda DİDK arasında əməkdaşlığın əsası qoyuldu, diaspor təşkilatları ilə təcrübə mübadiləsi sahəsində tarixi razılaşmalar əldə olundu, yerli rəsmilərlə görüşlərdə həmin ölkələrdəki azərbaycanlıların problemləri qaldırıldı və onların həllinə mümkün təkan verildi, Azərbaycan adı bir daha təbliğ olundu, azərbaycanlıların bu ölkələrdəki mövqeyinə əhəmiyyətli müsbət təsir göstərildi, Dövlət səviyyəsində diaspora dəstəyin artdığı sübut olundu,Amerikadakı Azərbaycan diasporunun fəaliyyətinin güclənməsinə stimul verildi.

***- Dövlət Komitəsi tərəfindən xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquqlarının müdafiəsi istiqamətində hansı addımlar atılır?***

-Xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması ilə əlaqədar dünyadakı beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin miqrasiya və bilavasitə diaspora məsul dövlət orqanları, qeyri-hökumət qurumları, Azərbaycandakı beynəlxalq təşkilatlar və səfirliklər ilə birbaşa əməkdaşlıq yaradılıb. Səfərdə olduğumuz hər bir ölkədə müvafiq qurumlarla da görüşlər keçirir, soydaşlarımızın problemlərini onların diqqətinə çatdırır, problemlərin həlli yolları ilə bağlı müzakirələr aparır və dəstək olmağa çalışırıq. Almaniya və Fransa DİN, ABŞ Dövlət departamenti, dünyanın bir çox elm və təhsil ocaqları ilə əməkdaşlıq qurulub. Diasporla iş üzrə Dövlət Komitəsi xaricdəki azərbaycanlıların hüquqlarının qorunması ilə bağlı daha bir vacib təşəbbüsə qoşulub. Azərbaycanlıların Xarici ölkələrdə insan alverinin qurbanına çevrilməsinin qarşısının alınması və eyni zamanda, qurban olmuş şəxslərin xilas edilməsi işinə Dövlət Komitəsi, eləcə də xaricdəki Azərbaycan diaspor təşkilatlarının cəlb edilməsi üçün Beynəlxalq Miqrasiya Təşkilatı ilə müzakirələr aparılır. Bununla birgə, soydaşlarımız və diaspor təşkilatları haqqında qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədi ilə Komitədə Milli Məclisin nümayəndələrinin iştirakı ilə müvafiq işçi qrupu yaradılıb. Bu istiqamətdə xarici təcrübə öyrənilərək, qanunun ilkin variantı hazırlanıb.Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən Türkiyə Respublikasında şəxsiyyəti təsdiq edən sənədləri olmadan məskunlaşmış azərbaycanlıların problemlərinin həlli, soydaşlarımızın müvafiq sənədlər əldə etməsi istiqamətində davamlı işlər görülür. Bu məsələ ilə bağlıXarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi və s. digər əlaqədar qurumların əməkdaşlarından ibarət işçi qrup yaradılıb. İşçi qrupu Türkiyəyə ezam edilərək müvafiq görüşlər keçirib. Səfər zamanı işçi qrupu tərəfindən soydaşlarımızın sənədləri toplanaraq onların hazırlanması üçün müvafiq dövlət qurumlarına təqdim edilib.Bu istiqamətdə digər ölkələrdə də iş aparılır. Bizə daxil olan müraciətlərə görə, bir neçə ölkədə həmvətənlərimizlə bağlı analoji problemlər var və bu istiqamətdə yaxın gələcəkdə digər dövlət qurumları ilə birgə fəaliyyətə başlanılacaq.

Soydaşlarımızın hüquq və azadlıqlarından danışarkən Gürcüstanda yaşayan azərbaycanlıların problemlərini də unuda bilmərik. Gürcüstanda yaşayan azərbaycanlılarla bağlı məsələ hər

# Prezident İlham Əliyevin müasir dünyanın qlobal tələblərinə uyğun siyasi kursu son dövrlərdə diaspor hərəkatını daha da gücləndirib

*Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun yap.org.az-a müsahibəsi*

zaman ölkə rəhbərliyinin və komitənin diqqətindədir. Gürcüstan hökuməti də bu problemlərin həlli istiqamətində addımlar atıb. Bu ilin iyun ayında Dövlət Komitəsinin nümayəndə heyəti ilə Gürcüstanda səfərdə olduq, azərbaycanlılar yaşayan bölgələrdə yerli sakinlərlə görüşüb onların problemləri, qayğıları ilə tanış olduq, icra orqanlarının nümayəndələri və bir sıra rəsmi qurumlarda görüşlər keçirdik. Həmvətənlərimizin burada təhsil, səhiyyə və sosial problemlərini öyrəndik. Lakin diqqət yetirdiyimiz ən önəmli məsələ Gürcüstan azərbaycanlılarının yerli cəmiyyətinə inteqrasiyasına nail olmaqdır. Çünki, yalnız cəmiyyətə inteqrasiya etmiş, vətəndaşı olduğu dövlətin dilini, qanunlarını bilən bir toplum öz hüquqlarını qoruya, normal yaşam şərtlərini təmin edə bilər. Eyni zamanda, bildirim ki, səfər çərçivəsində Heydər Əliyev Fondu adından Bolnisi və Qardabani rayonlarına yüksək tibbi imkanlara malik təcili tibbi yardım avtomobili hədiyyə edilib.

Təbii ki, Gürcüstan azərbaycanlılarının problemlər uzun illər ərzində yığılıb qalmış, SSRİ-nin süqutundan sonra yaranmış situasiyanın doğurduğu fəsadlardır və soydaşlarımızın orada torpaqla təmin olunmasından tutmuş, təhsil sahəsinə qədər çox problemləri var. Bunlar qısa zamanda həll olunası məsələlər deyil və inanırıq ki, Azərbaycan hökumətinin Gürcüstan hökuməti ilə sıx əməkdaşlıq şəraitində bu problemlər tədricən həllini tapacaq.

Regionla bağlı problemlərlə yanaşı, ümumi problemlər də mövcuddur. əslində buna problem deməzdim, sadəcə görüləsi işlərdir. Yəni, dilimizin qorunması və yaşadılması, soydaşlarımızın assimlyasiya deyil, inteqrasiya etməsi hər zaman aktualdır və Dövlət Komitəsi olaraq da bu məsələlər qarşımızda qoyulan əsas vəzifələrdəndir. Bu istiqamətdə də davamlı işlər görülür, məsələn, bu yaxınlarda İsveçrədə "Qarabağ" adlı Azərbaycan dili və mədəniyyəti məktəbi açılaraq, soydaşlarımızın istifadəsinə verilib, Fransanın Nant şəhərində də belə bir tədris ocağının açılması planlaşdırılır.

Hazırda Komitə xaricdə Azərbaycan məktəblərinin sayının artırılması, soydaşlarımızın dilimiz, tariximiz, mədəniyyətimiz və ümumilikdə ölkəmiz haqqında daha geniş informasiyalar əldə etməsi üçün ardıcıl addımlar atır. Amma görülən işlər, yalnız məktəblərlə tamamlanmır. Bir sıra ölkələrdə müvafiq kurslar fəaliyyət göstərir. Davamlı olaraq fəaliyyət göstərən kurslarda Azərbaycan dilinin, mədəniyyətinin incəlikləri nəinki soydaşlarımıza, onların övladlarına, eyni zamanda xarici ölkə vətəndaşlarına da öyrədilir. Görülən bu işlərdə məqsəd miqrasiya etmiş soydaşlarımızın adaptasiyasına dəstək olmaq, uşaqların inkişafını təmin etmək, onlara Azərbaycan adətlərini aşılamaq, dilimizi yaşatmaq, mədəniyyətimizi və tariximizi öyrətmək, həmçinin gənc nəsil arasında istedadların aşkar olunaraq inkişafına kömək etməkdir. Bütün bunlar, həm də azərbaycanlı ailələrin bir-biri ilə ünsiyyəti baxımından faydalıdır.

Beləliklə də, Azərbaycan dili və mədəniyyətinin təbliği ilə yanaşı, həm də Azərbaycanın zəngin tarixi-mədəni irsə malik olduğu, azərbaycanlıların tolerant və sülhpərvər bir xalq olduğu bir daha dünyaya bəyan edilir. Eyni vaxtda, istər məktəblərin, istərsə də kursların fəaliyyətində Azərbaycan həqiqətlərinin təbliği, torpaqlarımızın işğalı, Qarabağ problemi ilə bağlı informasiyaların dünya ictimaiyyətinə çatdırılması əsas hədəflərdən biri kimi saxlanılır.

***- Xarici ölkələrin diaspor siyasətinə cavabdeh dövlət qurumları və müxtəlif xalqların diaspor təşkilatları ilə qarşılıqlı əməkdaşlığa dair hansı addımlar atılıb və bu istiqamətdə gələcək planlarınız nədir?***

- Dövlət Komitəsi ilk dəfə olaraq xarici ölkələrin diaspor siyasətinə cavabdeh dövlət qurumları ilə qarşılıqlı əməkdaşlıq haqqında Memorandum imzalayıb. Bu anlaşma ilk olaraq bizimlə Rumıniyanın Xaricdə Yaşayan Rumınlarla İş üzrə Nazirliyi arasında baş tutub. Sənəd iki strateji tərəfdaş ölkənin diasporunun birgə əməkdaşlığını və təcrübə mübadiləsini nəzərdə tutur. Memorandum iki ölkə diasporlarının yaxınlaşması, birgə fəaliyyət göstərməsi, layihələrin yerinə yetirilməsi, bir-birinin təcrübəsindən bəhrələnməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Rumıniya səfər çərçivəsində eyni zamanda, Xaricdə Yaşayan Rumınlarla İş Komissiyasının sədri senator Viorel Riçard Badea, Rumıniyanın Baş naziri Viorika Dançilanın iş aparatında dövlət müşaviri Andreea Pastarnak və Baş nazirin strateji tərəfdaşlıqların tətbiqi üzrə müavini Ana Birçal ilə görüşlər keçirilib. Görüşlərdə iki ölkə diasporları arasında əməkdaşlığın istiqamətləri müzakirə olunub. 2009-cu ildə imzalanmış Strateji tərəfdaşlığın yaradılması haqda Birgə Bəyannamə və Strateji tərəfdaşlığın həyata keçirilməsi üzrə Birgə Fəaliyyət Planının vacibliyinə toxunulub, iqtisadi əlaqələrin, qarşılıqlı sərmayə qoyuluşlarının genişləndirilməsinin önəmi qeyd edilib. İmzalanmış Memorandumla əlaqədar xüsusi işçi qrup yaradılıb və artıq sənəd üzərində əməli işə keçilib. Belə ki, bu ayın əvvəlində Diasporla İş üzrə Dövlət Komitəsi ilə Rumıniyanın Xaricdəki Rumınlarla İş üzrə Nazirliyinin əməkdaşlarından ibarət işçi qrup Buxarestdə görüşüb, gələcək əməkdaşlığın istiqamətlərini müzakirə edib.

Türkiyə Nazirlər Kabineti yanında Xaricdə Yaşayan Türklər və Əqraba Toplulukları İdarəsi ilə Komitə arasında da "Diasporla iş sahəsində əməkdaşlığa dair anlaşma Memorandomu" imzalanıb. Bu sənəd qardaş ölkənin analoji qurumu ilə daha sıx və səmərəli əməkdaşlığa şərait yaradacaq. Hazırda İsveçrə, Meksika, Misir və İsrailin diaspor üzrə məsul dövlət qurumları ilə də memorandumun imzalanması üçün danışıqlar aparılır. Xüsusi qeyd olunmalıdır ki, son dövrdə digər xalqların diasporları ilə, konkret olaraq dünyanın müxtəlif yerlərində yaşayan yəhudi, rusdilli diasporlar və pakistan, meksika, koreya diasporları ilə də əlaqələr yaradılıb,sıx əməkdaşlıqların qurulması istiqamətində əməli iş aparılır.

***- Məlumdur ki, hər bir yeni dövrün yeni çağırışları mövcuddur. Rəhbərlik etdiyiniz Dövlət Komitəsi bu çağırışlara cavab vermək üçün nə kimi işlər görməyi nəzərdə tutur?Bu istiqamətdə innovativ addımlar nədən ibarət olacaq?***

- Bu gün ölkəmizdə innovativ inkişaf üçün ciddi addımlar atılır və ildənilə genişlənir. Bu prosesdə informasiya texnologiyaları sahəsi mühüm rola malikdir. Dövlət Komitəsi də informasiya-kommunikasiya texnologiyalarının imkanlarından yararlanaraq müxtəlif innovativ layihələr həyata keçirməkdədir.

Dövlət Komitəsinin rəsmi internet saytı yeni tərtibatda, üç dildə istifadəyə verilib;

Saytın təhlükəsizliyi maksimum səviyyədə təmin edilib;

Statistik göstəricilər nəzərə alınmaqla saytın mobil və digər qurğuları dəstəkləməsi təmin edilib;

Sayt sosial şəbəkələr ilə tamamilə inteqrasiya edilib və həm vebsayt üzrə, həm də ayrıca sosial şəbəkələr üzrə əhatəli analitik hesabatların qeydiyyatı aparılır;

Diasporamap.com inforqrafik xəritə patformasını istifadəyə verdik, müxtəlif ölkələrdəki diaspor təşkilatlarını və tanınmış azərbaycanlıları ölkələr üzrə topladıq. Qeyd edim ki, bu istiqamətdə işlərimiz davam edir, təşkilatların vahid bazası təkmilləşdirilir;

Dövlət Komitəsinin loqo və üslubunu çoxsaylı təkliflər nəzərə almaqla yenidən tərtib etdik;

Multimedia məhsullarının sayını artırmaqla Dövlət Komitəsi haqqında informasiya boşluğunu doldurmağa nail olduq. Video və inforqrafik çarxlar, slayd və təqdimat xarakterli informasiyalar saytımızın və sosial şəbəkələrin köməyi ilə geniş ictimaiyyətə çatdırılır;

Komitənin internet televiziyası Diaspor TV yaradılaraq aktiv fəaliyyəti təmin edilmişdir. Diaspor TV-də"Dünyada yaşayan azırbaycanlıları tanıyaqtanıdaq" layihəsi həyata keçirilir. Layihə çərçivəsində, uğur əldə etmiş soydaşlarımız haqqında videoroliklər hazırlanaraq yayımlanır. Onlayn Azərbaycan dili dərsləri təşkil edilir, "Azərbaycan dilində danışan xaricilər" və "Qarabağ" rubrikası da fəaliyyət göstərir. Burada Qarabağ haqqında 5 cümlə 5 dildə yayımlanır. "Sabahın xeyir, Azərbaycan" rubrikası var, xaricdə yaşayan soydaşlarımız, əsasən gənclər ölkəmizi salamlayır, sabahın xeyir Vətən söyləyirlər.

Paralel olaraq, Komitənin İctimai Televiziya ilə birgə layihəsi çərçivəsində ayda bir dəfə "Vətən uzaqda deyil" adlı veriliş yayımlanır. Verilişdə xaricdə yaşayan soydaşlarımızla müsahibələr, həyata keçirilən layihələr barədə videoreportajlar və s. yer alır.

Müasir dövrün tələbinə uyğun olaraq sosial şəbəkələrə - əsasən facebook, twitter, youtube-a diqqət artırılıb. Xüsusilə, sosial şəbəkələr üçün müxtəlif rubrikalar üzrə hazırlanmış multimedia materialları və rəsmi vebsaytın informasiya paylaşımları hesabına izləyicilərin sayında böyük artım oldu və proses sürətlə davam etməkdədir.Diaspor təşkilatlarına onların elektron və sosial mediada işini gücləndirmək məqsədilə informasiya-kommunikasiya texnologiyaları sahəsində tam ödənişsiz texniki dəstək təklif edirik. Diaspor təşkilatlarının internet saytlarının hazırlanması, e-poçt xidmətlərinin yaradılması və digər innovativ məsələlərdə, eləcə də sosial mediada marketinq işinin təşkilinə dair dəstək göstərəcəyik. Bu məqsədlə, diaspor təşkilatlarının qeydiyyata alınması prosesi davam edir və artıq 85 təşkilat qeydiyyatdan keçib.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin radiosu Diaspor.FM test yayıma başladı. Həm veb üzərindən, həm də mobil tətbiq vasitəsi ilə yayım aparılır.

Həyatda olan, dünyadan köçmüş, dünya tarixinə və dünya gündəminə iz salmış azərbaycanlıların bioqrafiyalarının toplandığı bank yaradılır. Bank onlayn rejimdə fəaliyyət göstərəcək və ətraflı axtarış sisteminə malik olacaq.

Bu tip layihələrin həyata keçirilməsində əsas hədəflərimizdən biri də internet məkanında Azərbaycan həqiqətləri ilə bağlı informasiyaların - kontentin üstünlüyününail olmaqdır.

Xaricdə yaşayan azərbaycanlıların diqqətini cəlb etmək, onları simvolik və virtual formada birləşdirmək, həvəsləndirmək üçün də planlarımız var. Bu planlar innovativ əsaslara söykənir. Bu səbəbdən daha effektiv fəaliyyətin qurulmasına inanırıq.

***- Xaricdəki azərbaycanlıların yaşadıqları ölkələrdə ictimai-siyasi proseslərdə aktiv iştirakını təmin etmək də bu gün aktual mövzulardan biridir. Bununla əlaqədar mövcud mənzərə necədir?***

- Diaspor quruculuğu sahəsində dövlətimizin apardığı ardıcıl siyasət, ölkə başçısının tapşırıqlarına uyğun olaraq hər bir müəyyən dövr üçün tətbiq edilən yeni proqramlar öz bəhrəsini verir. Görülən ardıcıl tədbirlər, dövlət tərəfindən işlənib hazırlanan konkret strateji istiqamətlər həmvətənlərimizin məskunlaşdıqları ölkələrin cəmiyyətlərində mövqelərini genişləndirməyə imkan yaradır. Azərbaycanın dünyaya tanıdılmasına, zəngin mədəniyyətimizin təbliğinə vəsilə formalaşdırılır, bəzi antimilli qüvvələrin dövlətimiz və xalqımız əleyhinə yönəlmiş məkrli planlarına qarşı təsirli tədbirlərin görülməsi nəticələrini verir. Amma hesab edirik ki, diaspor təşkilatlarımız bundan sonra da səylərini artırmalı, Komitənin hazırladığı yeni yol xəritəsinə uyğun Azərbaycanın müvafiq dövlət qurumları və xarici ölkələrdəki diplomatik nümayəndəlikləri ilə əməkdaşlıq şəraitində daha məqsədyönlü və çevik fəaliyyət göstərməlidirlər. Artıq Xarici İşlər Nazirliyi və Dövlət Komitəsi arasında əməkdaşlıq haqqında razılaşmaya uyğun olaraq Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklərinə birgə fəaliyyətlə bağlı müvafiq məktub göndərilib. Bu istiqamətdə digər əlaqələndirmə tədbirlərinin həyata keçirilməsi də gündəlikdə duran məsələlər sırasındadır və yeni fəaliyyət proqramları çərçivəsində atılan addımların müvafiq nəticələrinin təhlili göstərir ki, ayrı-ayrı ölkələrdəki Azərbaycan diaspor təşkilatları öz fəaliyyətlərində yeni, effektiv iş mərhələsinin başlandığını etiraf edir. Təşkilat rəhbərləri Diasporla İş üzrə Dövlət Komitəsinin işindəki sağlam istiqaməti, aparılan islahatları və ən əsası, isti münasibətləri təqdir edir. Artıq bir ölkə daxilində bir-biri ilə çəkişən, umu-küsü saxlayan diaspor təşkilatı demək olar ki, yoxdur. Sağlam idarəçilik, səmimi münasibət demək olar ki, bütün vətənsevər qüvvələrin bir araya gəlməsinə şərait yaradıb.Ölkə başçısı, cənab İlham Əliyev tərəfindən yaradılan Diaspora Dəstək Fondu isə dünyada Azərbaycanın diaspor ənənələrinin daha da inkişaf etməsinə möhkəm təməl formalaşdıracaq. Xarici ölkələrdəki təşkilatlarımız Komitə ilə yaxın münasibətlər qurmaqla dövlətə, xalqa, milli dəyərlərə sahib olmaq yolunda iri addımlarla hərəkət edə biləcəklər.Tərəfimizdən aparılan təhlillərin ilkin nəticələri göstərir ki, diaspor təşkilatlarında səmərəli və effettiv fəaliyyət üçün təməlli motivasiya yaranıb. Yeni yaradılan Koordinasiya Şuralarında əlaqələndirmə sahəsində mühüm addımlar atılır. Təşkilatlar ayrı-ayrılıqda fəaliyyət konsepsiyalarının hazırlanmasına başlamaqla, təmsil olunduqları ölkələrdə yalnız milli-mənəvi dəyərlərin deyil, Azərbaycan həqiqətlərinin də təbliğini, erməni diaspor təşkilatlarının həmlələrinin qarşısını almağı və yaşadıqları cəmiyyətin ictimai-siyasi həyatına nüfuz etməyin perspektivlərini dəqiqləşdirirlər. Möhkəm təşkilatlanma, dayanıqlı fəaliyyət, xarici ölkələrin siyasi-iqtisadi həyatında önəmli yerlərə ucalmaqla təsir imkanlarının genişləndirilməsi yeni mərhələ üçün bir məqsəddir, hədəf isə bütün təşkilatlar üzrə tədricən lobbiçilik ənənələrinə keçidin təmin olunması ilə Azərbaycan dövlətinin və xalqının mənafelərinin, milli maraqlarının qorunmasıdır.

***- Fuad müəllim, artıq 2018-ci il başa çatmaqdadır. Gələn il Azərbaycan həqiqətlərinin dünya ictimayyətinə çatdırılması istiqamətində hansı işlərin həyata keçirilməsi nəzərdə tutulur? Xüsusilə, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasətinin beynəlxalq miqyasda ifşa olunması, Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması yönündə Dövlət Komitəsi hansı tədbirləri həyata keçirəcək?***

- Müasir dövrdə informasiya müharibəsi, şərtlər, siyasi reallıqlar və yeni fəaliyyət mexanizmləri, Azərbaycan diaspor hərəkatında gənclərin rolu, lobbi quruculuğu, cəmiyyətə inteqrasiya və siyasi həyatda fəallığın artırılması kimi mühüm məsələlər, həmçinin təbliğat işində müasir metodların və informasiya texnologiyalarının tətbiqi diqqət mərkəzində olacaq. Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, azərbaycanlılara qarşı ermənilərin törətdikləri vəhşiliklər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılması, konkret hadisələr üzrə faktların dünya ictimaiyyətinə çatdırılması cənab Prezidentin hər birimizin qarşısında müəyyən etdiyi ən vacib məsələlərədn biridir. Bu istiqamətdə görülən işlərdən danışarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır.Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu sahədə rolunu təkrarən qeyd etmək istərdim. Onun təşəbbüsü ilə yaradılan "Xocalıya ədalət!" beynəlxalq kampaniya ən önəmli addımlardandır.

Qeyd etmək yerinə düşər ki, görülən bu işlər yalnız müəyyən vəzifə daşıyıcılarının və ayrı-ayrı ictimai xadimlərin deyil, bütövlükdə hər bir azərbaycanlının, hər bir vətənsevərin, eləcə də beynəlxalq hüquq normalarına hörmətlə yanaşan hər bir insanın borcudur. Diasporla İş üzrə Dövlət Komitəsi olaraq da soydaşlarımızla bu istiqamətdə söhbətlər aparılır, təşkilatlara həqiqətlərin təbliğində bütün mümkün dəstək göstərilir. Biz təşkilatları bütün zəruri əyani vəsaitlərlə təmin edirik, onlara təbliğat dəstəyi göstəririk. Biz hər hansı diaspor təşkilatının fəaliyyət planına düzəliş və ya hər hansı təsir etmirik. Sadəcə təşkilatlar dövlətimizinməqsəd və hədəflərini, o cümlədən Komitənin qarşısında dayanan vəzifələri bilirlər və öz fəaliyyət planlarını da buna uyğun qururlar.




# Daim axtarışda, daim inkişafda olan "AtaHolding"

***Qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması, dünyanın qabaqcıl texnologiyalarının Azərbaycana gətirilməsi və tətbiqi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sahibkarlığa göstərdiyi yüksək diqqət və qayğı bu sahədə çalışanları daha həvəslə işləməyə sövq edir.***

Azərbaycan dövlətinin yürütdüyü iqtisadi siyasət ölkədə azad sahibkarlığın təşəkkül tapmasına və cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə xidmət edir. Ölkəmizdə biznesin inkişafına yaradılan şərait və gələcək perspektivlər "AtaHolding" Şirkətlər Qrupunun fəaliyyətinə və inkişafına da geniş imkanlar açır.

Azərbaycana müasir holdinq idarəetmə mədəniyyətini gətirən və bunu müasir idarəetmə standartlarına müvafiq olaraq təşkil edən bu holdinq daim axtarışdadır, daim inkişafdadır, öz strukturunu təkmilləşdirərək yeni biznes sahələri yaradır. 2003-cü ildə təsis edilmiş, əsasən maliyyə sektorunda fəaliyyətə başlamış holdinq bu gün turizm, informasiya texnologiyaları və xidmət sahələrində böyük nailiyyətlər əldə etmişdir. "AtaHolding" iqtisadiyyatın müxtəlif sahələrində investisiya qoyuluşunu, maliyyə vəsaitlərinin, habelə intellektual sərvətlərin idarə olunmasını və korporativ idarəetməni həyata keçirir.



*"Ataholding" korporativ komunikasiya şöbəsinin rəisi Dilarə Zamanova*

Hazırda "AtaHolding"-in maliyyə sektorunda "AtaSığorta" ASC, "AtaLizinq" ASC, turizm sektorunda "AtaTurizm" MMC, "AtaTravel" MMC və 5 ulduzlu "Excelsior Hotel & Spa Baku" oteli və Informasiya Texnologiyaları sahəsində "AtaTexnologiya" MMC şirkətləri fəaliyyət göstərir. "AtaHolding" Azərbaycanın həm fiziki, həm də intellektual resurslarından səmərəli istifadə etmək, yeni iş yerlərini yaratmaq üçün sərmayə qoymaq, səhmdarlar, işçilər və müştərilərin məmnunluğunu yüksək səviyyədə təmin etmək və nəticədə Azərbaycanın rifahı və iqtisadi inkişafına dəstək olmağı qarşısına məqsəd qoymuşdur.

2018-ci ili uğurla başa vuran "AtaHolding"in illik fəaliyyətinin əsas istiqamətləri, həyata keçirilən layihələr və nailiyyətlər barədə məlumat əldə etmək üçün yeniilqabağı holdinqin məsul işçiləri ilə görüşüb söhbətləşdik.

"AtaSığorta" ASC İdarə Heyəti sədrinin birinci müavini Orxan Məmmədov 2018-ci ilin yekunlarından danışarkən söylədi ki, şirkət hazırda 30 sığorta növü üzrə müştərilərə sığorta xidmətləri göstərir. Sığorta növləri iki hissəyə bölünür. Könüllü növlər və icbari növlər. Orxan Məmmədov bildirib ki, "Biz sığorta yığımlarımızın genişlənməsini və xərclərin müəyyən formada optimallaşdırılmasını planlaşdırırıq. 2018-2020-ci illər üzrə şirkətimizin strategiyasına uyğun olaraq qarşımızda duran proqnozlar bunu deməyə imkan verir. Hesab edirik ki, 2019-cu ildə könüllü sığorta məhsullarının növlərini artıracağıq. Şirkətimiz könüllü növlər üzrə müştərilərin rahatlığına və istəklərinə uyğun olaraq "Sərfəli Kasko", "Qoşa Kasko", "Arxayın mən" və "Sığortalıyam" məhsullarını bazara təqdim edib. Sentyabr ayından etibarən daha bir yeni məhsul "Petrollu Kasko" məhsulu müştərilərə təqdim olunub. Sığorta risklərimizi səmərəli idarə etmək məqsədilə sığorta portfelimizi bir qədər diversifikasiya etmək istəyirik. Həmçinin, xidmətlərimizin keyfiyyətini artırmaqla sığorta sektorunda ciddi rəqabət aparan şirkətlərdən biri kimi bütün imkanlarımızdan istifadə etməyə çalışırıq. Şirkətimiz fiziki və hüquqi şəxslərə yüksək səviyyədə sığorta xidmətləri göstərməklə onların tələbatına uyğun yeni məhsulları təqdim etməyi davam etdirməkdir".

**Ardı Səh. 11**

# Daim axtarışda, daim inkişafda olan "AtaHolding"

Əvvəli Səh. 10




"AtaSığorta" ASC ölkəmizdə mövcud tələbata uyğun olaraq fiziki şəxslər üçün nəzərdə tutulmuş "Səyahət paketi", "Tələbə paketi", "Fiziki şəxslərin sığortası" və "Ailə paketi" adlı yeni tibbi sığorta məhsullarını sığorta sektoruna təqdim edir. Turizmlə bağlı sığorta məhsuluna tələbatı nəzərə alaraq yeni "Səyahət paketi" məhsulu yaradılmışdır. Bu məhsul ölkə daxilində səyahət edən vətəndaşlar və xaricdən gələn qonaqlar üçün nəzərdə tutulub. "Səyahət paketi" təcili baş verən halların və xəstəliklərin müalicəsinə təminat verir. "Tələbə paketi" yerli və xaricdən ölkəmizə təhsil almaq üçün gələn tələbələr üçün nəzərdə tutulub.

Ali təhsil müəssisələrinin tələbələri bu məhsulu əldə etməklə kiçik bir məbləğ qarşılığında gözlənilməz hadisələr zamanı tibbi yardımla təmin olunmalarına nail ola bilərlər. Bu paket üzrə 5 cür qiymət təklifi mövcuddur. Qiymətlər təminat verilən risklərin əhatəsindən asılı olaraq dəyişir.

Həmçinin, vətəndaşların çoxsaylı müraciətləri əsasında fiziki şəxslərin fərdi qaydada sığortalanması üçün "Fiziki şəxslərin sığortası" və ailələr üçün nəzərdə tutulan "Ailə paketi" adlı yeni tibbi sığorta məhsulları hazırlanıb. Hər iki məhsul üzrə bir neçə qiymət təklifi təqdim olunur. Qiymətlər təminat verilən risklərin əhatəsindən asılı olaraq dəyişir. Ailə və ya qrup şəklində sığorta olunan zaman sərfəli qiymətlər təklif edilir. "AtaSığorta" ASC 100-ə yaxın klinika və apteklərlə əməkdaşlıq edir və bu siyahı günü-gündən genişlənir. Sığorta olunanlar müqavilə müddəti ərzində həmin klinikalarda müalicə olmaq imkanı əldə etmiş olurlar. Həmçinin, sığorta olunanların ailə üzvlərinə əməkdaşlıq etdiyimiz klinikalarda sığorta təminatına daxil olmayan xidmətlər üzrə 50 %-dək endirimlər tətbiq olunur.

Bu yaxınlarda "AtaSığorta" ASC sığorta xidmətlərinə tələbatın artmasını nəzərə alaraq müştərilərinə daha operativ və keyfiyyətli sığorta xidmətləri göstərmək məqsədi ilə "GƏNCƏ" Filialının ofisini yeni ünvanda Gəncə şəhərində müştərilərin istifadəsinə verib. Onu da qeyd etmək lazımdır ki, 2018-ci ildə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası "AtaSığorta" ASC-ni Həmkarlar İttifaqında xidmətlərinə görə "AHİK-in 25 illik Yubiley" döş nişanı ilə təltif etmişdir.

"AtaSığorta"nın aktivləri hal-hazırda 30 milyon manatdan çoxdur. Şirkət 26 könüllü və 4 icbari sığorta növü üzrə sığorta xidmətləri təqdim edir. İcbari Sığorta Bürosunun üzvüdür. "AtaSığorta" ASC Bakı şəhəri daxil olmaqla regionlar üzrə 15 filialı, 19 nümayəndəliyi və 60-dan çox satış ofisləri ilə müştərilərə xidmət göstərir.

2018-ci ilin fevral ayında "Excelsior Hotel & Spa Baku" oteli "Business Time" jurnalı tərəfindən "İlin otel və SPA nominasiyası" üzrə "Azeri Business Award 2017" Milli mükafatına layiq görülüb. Əlbəttə ki, bu mükafata layiq görülmənin real əsasları var. Belə ki, Azərbaycanda turizmin inkişafında "Excelsior Hotel & Spa Baku" otelinin xüsusi yeri var. Otel daim müştəri məmnuniyyətini üstün tutur və oteldə xaricdən gələn qonaqlara ən yüksək xidmət göstərilir. Qeyd edək ki, bu mükafat milli biznesin yeni simasını formalaşdıran, Azərbaycan bazarının ən parlaq və dinamik iştirakçılarına təqdim edilir. Otelin baş sponsorluğu ilə "Cümhuriyyət 100" tədbiri, modasevərlər üçün "İdeal qarderob necə təşkil olunmalıdır?" mövzusunda tədbir, "Yay tədbiri 2018", turizm ixtisası üzrə təhsil alan tələbələr üçün müxtəlif mövzularda seminarlar keçirilmişdir.

***

"AtaHolding" Şirkətlər Qrupuna daxil olan, 2011-ci ildə təsis edilmiş "AtaTravel" turizm agentliyi turizm sahəsində sərfəli, rahat xidmət və müştəri məmnuniyyətini qazanmaqla diqqət çəkir. Dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edən şirkət öz müştərilərinə otel, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta, viza ilə əlaqədar xidmətlər təklif edir, bu məqsədlə xüsusi endirim və hədiyyə aksiyaları da keçirir.

"AtaTravel" MMC-nin baş direktoru Vüsal Əliyevin sözlərinə görə, ölkəmizdə turizm sahəsi hazırda dinamik inkişaf edir, turların səviyyəsi və təkliflərin sayı sürətlə artır. Son vaxtlar daxili turizm sürətlə inkişaf edir, çoxlu sayda otellər açılmış, elektron viza rejimi tətbiq edilmişdir ki, əvvəllər onun olmaması Azərbaycana xarici turist axınının qarşısını alırdı. Bütövlükdə, turizm - müasir iqtisadiyyatın insanların tələbatlarının yerinə yetirilməsinə və əhalinin yaşayış keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş ən mühüm fəaliyyət sahələrindən biridir. Cəsarətlə demək olar ki, dünya böhranına baxmayaraq, Azərbaycan turizmi inkişaf etməkdə davam edir. "AtaTravel" 2019-cu ildə "AtaTravel" Ukraynanın məşhur "Edem Resort and Spa" oteli ilə birgə maraqlı aksiyaların keçirilməsini davam etdirəcək. Xüsusilə yay aylarında müalicəni rahat istirahət ilə birləşdirmək istəyənlər üçün əlverişli təkliflər müştərilərə təqdim olunacaq.

Cari ildə "AtaTravel" MMC tərəfindən qadın jurnalistlər üçün PR təlim keçirilmiş, "InterContinental Hotels Group"-un nümayəndələri əməkdaşlıqla bağlı görüş keçirilmişdir. Bundan başqa, "AtaTravel" MMC-nin kollektivi "Opalus Partners" şirkətinin rəhbəri Çimnaz Qasımova tərəfindən "Motivasiyalı işçi" təlimi, "Buisness Ring" şirkətinin rəhbəri Səbinə Rəhimova tərəfindən "İşgüzar danışıqların aparılması" mövzularında təlimlər keçirilmişdir. "Motivasiyalı işçi" təlimində uğurun sirrləri, iş yerində motivasiyalı olmaq və qarşıya çıxan çətinlikləri həll etməyin yolları müzakirə olunmuş və əməkdaşların motovasiyasını yüksəldilməsi üçün istifadə olunan müxtəlif metodlar haqqında danışılmışdır.

9 oktyabr tarixində "AtaTravel" MMC Prime Consulting şirkətinin təşkilatçılığı, Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Assosiasiyasının dəstəyi ilə keçirilən üçüncü "Prime Travel Market 2018" tədbirində iştirak etmişdir. "AtaTravel" MMC-nin tur operatoru Rəvan Əhmədov və "AtaHolding" Korporativ Kommunikasiyalar şöbəsinin rəisi Dilarə Zamanova xarici turizm şirkətlərinin nümayəndələri ilə əməkdaşlığın möhkəmləndirilməsi və eyni zamanda gələcək fəaliyyətin inkişafı üçün təcrübə və fikir mübadiləsi aparmışdılar.

Tədbirdə Rusiya, Ukrayna, Qazaxıstan, Çexiya, Sloveniya, Belarus, İtaliya, İspaniya, İsveç, Almaniya, Hindistan, Meksika, Türkiyə, Yunanıstan, Birləşmiş Ərəb Əmirlikləri və Cənubi Afrika ölkələrindən xarici turizm şirkətlərinin nümayəndələri iştirak etmişdilər.

"AtaHolding" Şirkətlər Qrupunun Korporativ Kommunikasiya şöbəsinin rəisi Dilarə Zamanova holdinqin fəaliyyəti barədə ətraflı məlumat verdi. O, dedi:

- Yeni, 2019-cu ilə saylı günlər qalıb. Yola saldığımız 2018-ci il bir sıra tədbir və nailiyyətlər baxımından bizim üçün də əlamətdar sayıla bilər. Bu baxımdan bir sıra yaddaqalan fəaliyyət və nailiyyətləri sadalamaq yerinə düşərdi. "AtaHolding"-in və holdinqə daxil olan şirkətlərin fəaliyyətinin optimallaşdırılması ilə bağlı olaraq 2018-ci ildə görülən tədbirlər uğurla həyata keçirilmişdir. Bunlardan biri də "AtaHolding"-ə daxil olan şirkətlərin bir çətir altında birləşərək beynəlxalq standartlara uyğun idarəetmə sisteminə keçməsi olmuşdur. Belə ki, AtaHolding Şirkətlər Qrupuna daxil olan bəzi şirkətlər AtaHolding MMC-yə birləşdirilmiş, vahid idarəetmə strukturu və hədəfləri müəyyənləşdirilmişdir. Xüsusilə də bir neçə şirkətdə təkrar və dublikasiya olunan vəzifələr vahid prinsip əsasında yenidən qurulmuşdur. İlkin fəaliyyət hesabatları təsdiq edir ki, bununla bağlı verilmiş qərarlar düzgün olmuş və ötən illərin göstəriciləri ilə müqayisədə effektivlik daha da artmışdır. 2019-cu ildə də "AtaHolding" beynəlxalq idarəetmə standartlarına uyğun olaraq belə tədbirlərin həyata keçirməyi davam etdirəcəkdir.

"AtaHolding" Şirkətlər Qrupu 2018-ci ildə də sosial və biznes yonümlü tədbirlərin keçirilməsində fəal olmuşdur. "AtaHolding" 2018-ci ilin may ayında Ümummilli Lider Heydər Əliyevin 95 illik yubileyinə və Qələbənin 73 illiyinə həsr edilmiş konsert proqramını Bilgəh Qocalar evində təşkil edib.

KİV ilə əməkdaşlığımız yüksək səviyyədə qurulmuşdur. "AtaHolding"in məsul işçiləri tərəfindən mütəmadi olaraq mediaya mütəxəssislər və ya holdinq təmsilçisi tərəfindən müsahibələr və açıqlamalar verilir, bunlar ölkənin mötəbər media qurumlarında dərc edilir və ya yayımlanır.

"Media Consulting & Sevices" şirkətinin apardığı monitorinqə görə, "AtaHolding"ə daxil olan "AtaSığorta" ASC və "Excelsior Hotel & Spa Baku" oteli 2018-ci ildə dəfələrlə mətbuatda işıqlanan məlumatların sayına görə birinci yerdə qərarlaşıb.

Bu qısa icmaldan görünür ki, "AtaHolding" Şirkətlər Qrupu 2018-ci ili uğurla başa vurub, Yeni - 2019-cu ilə inamla addımlayır. Əminliklə demək olar ki, holdinqin bütün əməkdaşları - adi işçidən tutmuş rəhbərlərinə qədər hamı bundan sonra da əzmlə çalışacaq, ölkə iqtisadiyyatının inkişafı yolunda əlindən gələni əsirgəməyəcək.

Yeni ildə bu böyük kollektivə uğurlar diləyi ilə!

# Daşkəsən rayonunun Quşçu və Bayan kəndlərinə ilk dəfə təbii qaz verilib

***Dünən Daşkəsən rayonunun Quşçu və Bayan kəndlərinə təbii qaz verilib.***



Açılış mərasimində Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı münasibətilə başda Möhtərəm Prezidentimiz İlham Əliyev olmaqla, tədbir iştirakçılarını təbrik edib, ən xoş istəklərini və arzularını bildirib: "Bu gün Daşkəsən rayonu üçün böyük əlamətdar hadisə - ucqar, soyuq dağlıq yaşayış məntəqələri olan Quşçu və Bayan kəndlərinə, ilk dəfə olaraq, təbii qazın verilməsi münasibəti ilə rayonumuza göstərdiyi diqqət və qayğıya görə Möhtərəm Prezidentimiz İlham Əliyevə bütün rayon əhalisi adından təşəkkürümüzü və dərin minnətdarlığımızı bildiririk. Hər birimiz yaxşı bilirik ki, Sovet dövründə belə ucqar dağlıq kəndlərə qazın çəkilməsi məsələsi qeyri-mümkün idi, ancaq arzu və xəyallarda gerçəkləşə bilərdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyaları Prezidentimiz İlham Əliyev tərəfindən uğurla və qətiyyətlə davam etdirilərək, məqsədyönlü şəkildə reallaşır. Vaxtilə həyata keçirilməsi şübhə doğuran, əlçatmaz kimi görünən arzularımız və istəklərimiz reallığa çevrilərək, gözlərimiz önündə gerçəkləşir. Bax, budur Möhtərəm Prezidentimizin iqtisadi-siyasi sabitliyə, xalqın rifahına sosial xidmət göstərən siyasətinin uğurlu nəticəsi. Birmənalı olaraq, bildirmək istəyirəm ki, ölkə Prezidenti İlham Əliyevin göstəriş və tapşırıqları əsasında, respublikamızın bütün bölgələrində olduğu kimi, Daşkəsən rayonunda da, geniş tikinti-quruculuq və abadlıq işləri aparılır, ucqar dağ kəndlərinə ən müasir yollar çəkilib, körpülər inşa olunub, su-kanalizasiya, elektrik və qaz təchizatı sistemləri yenidən quraşdırılır".

Əhəd Abıyev çıxışının sonunda bir daha tədbir iştirakçılarını Quşçu və Bayan kəndlərinə təbii qazın verilməsi münasibətilə ürəkdən təbrik edərək, daşkəsənlilər adından rayona göstərilən diqqət və qayğıya görə, Möhtərəm Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident çox hörmətli Mehriban xanım Əliyevaya öz dərin təşəkkürünü və minnətdarlığını bildirməklə müstəqil respublikamızın möhkəmləndirilməsi və inkişafı istiqamətində gördükləri işlərində böyük nailiyyətlər və yeni uğurlu qələbələr arzuladı.

Açılış mərasimində SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbalıyev, SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyinin Şəmkir regional idarəsinin rəisi Osman Beybudov, Bayan kənd sakinləri adından Məmməd Məmmədov, Quşçu kənd sakinləri adından Aqil Aslanov çıxış edərək, əhalinin sosial problemlərinin həllinə göstərilən diqqət və qayğıya görə, ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev kənd sakinlərinin sürəkli alqışları ilə rayonun Quşçu və Bayan kəndlərinə ilk dəfə təbii qaz verilməsinin rəmzi əlaməti olan məşəli alovlandırıb. Açılış mərasimindən sonra Əhəd Abıyev Quşçu kənd sakini Ələkbərov Məsim Qara oğlunun evinə qazın verilməsi ilə tanış olub.

***Rəfiqə Hüseynova***

## Oğuzda Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş şahmat turniri keçirilib

YAP Oğuz rayon təşkilatının təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Oğuz rayon UGİŞM-də böyüklər arasında şahmat turniri keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov tədbir iştirakçılarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə təbrik edib. O, təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün xalqımızın və bütün dünyada yaşayan həmvətənlərimizin mənəvi birliyinin rəmzi olduğunu vurğulayıb. S.Məhərrəmov çıxışında son illər yeni olimpiya-idman komplekslərinin istifadəyə verilməsini, bədən tərbiyəsi və idmanın kütləviliyinin artmasını Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu bildirib.



Gərgin mübarizə şəraitində keçən şahmat turnirindəki qarşılaşmada 3 nəfər qələbə qazanaraq, turnirin qalibi olub. Oğuz rayon icra hakimiyyətinin başçısının müavini Etibar Yusifov finalçıların mükafatlandırılması mərasimində çıxış edərək, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə iştirakçıları təbrik edib, ölkə Prezidenti İlham Əliyevin Azərbaycanda idmanın inkişafına göstərdiyi diqqət və qayğıdan danışıb.

Sonda YAP Oğuz rayon təşkilatının sədri S.Məhərrəmov şahmat turnirinin qalibi olmuş 3 nəfər şahmatçını təbrik edib. Qaliblər YAP Oğuz rayon təşkilatı tərəfindən qiymətli hədiyyə və diploma mükafatlandırılıblar.

***ZÜMRÜD BAYRAMOVA***



# Rusiya Ermənistana verdiyi qazın qiymətini artıracaq

## Rusiyalı ekspertlər erməniləri məyus etdilər

***Rusiyalı iqtisadçı Konstantin Simonov erməni mediasına müsahibə verərkən, Ermənistana 2019-cu ildə nəql olunacaq qazın tarif qiymətinin artmasının mümkünlüyünə də toxunub. Bu barədə Ermənistanın "168 jam" nəşri yazır. Nəşrin qeyd etdiyinə görə, rusiyalı iqtisadçı erməni-rus münasibətlərində cərəyan edən soyuq münasibətləri əsas gətirərək bildirib ki, qazın tarif qiymətinin artırılması Ermənistan-Rusiya siyasi münasibətlərindən asılıdır ki, bu amilə iqtisadiyyatı da əlavə etmək olar. "Bu məsələyə yenidən baxılma mərhələsi gedir və qiymətin enib-enməməsi mövcud münasibətlərdən asılıdır ki, bu da həmin mərhələdən sonra bəlli olacaq", deyə Simonov erməni qəzetinə müsahibəsində bildirib.***

**Konstantin Simonov: "Hamı ucuz qaz istəyir, lakin qaza qoyulan qiymətin özü də bir siyasətdir"**



O, həmçinin, qeyd edib ki, hazırkı məqamda ölkələr arasında problemlər yaranıb və bu problemlər zaman-zaman ikitərəfli münasibətlərdə özünü göstərir: "Tərəflər yaranmış problemlərdən dolayı həll yollarını tapmağa cəhd edirlər və onlardan biri də qaza qoyulan qiymətlə bağlıdır ki, bu da, həmin münasibətlərdə özünü göstərəcək. Bəllidir ki, Ermənistan hakimiyyəti də qazın qiymətinin endirilməsi barədə fikirlərini bildirib. Hamı ucuz qaz istəyir, lakin qaza qoyulan qiymətin özü də bir siyasətdir. Rusiya bu vasitə ilə özünün daha geniş siyasətini dəqiqləşdirir". Rusiyalı iqtisadçı mövcud vəziyyətdə tərəflərin yaranmış problemin nə qədər həll olunduğunun aydınlaşmadığını deyib və ümumilikdə, bu problemlərin qaldığını bildirib. "Bu baxımdan, tərəflərin necə razılığa gələ biləcəkləri ilə bağlı indidən nəticə çıxarmaq çətindir", deyə Simonov qeyd edib. O, iqtisadi məsələlərdə kifayət qədər genişmiqyaslı işlərin aparılmasının vacibliyini də bildirib.

**Rusiyalı analitik Stanislav Tarasov: "Qazın tarif qiyməti ilə bağlı məsələ iqtisadiyyatdan daha çox siyasi məsələlərə söykənir"**

Maraqlıdır ki, digər rusiyalı analitiklər də eyni fikirləri bölüşürlər və bunu Ermənistanın Rusiyaya münasibətdə yaratdığı problemlərlə əlaqələndirirlər. "Qazın tarif qiyməti ilə bağlı məsələ iqtisadiyyatdan daha çox siyasi məsələlərə söykənir". Belə ki, Rusiyanın siyasi analitiki Stanislav Tarasov bu sözləri erməni nəşrinə deyib. O, hesab edir ki, qazın tarifi ilə bağlı danışıqlar, yəni qəbul ediləcək qərar erməni-rus münasibətlərinin mövcud keyfiyyətini göstərəcək. Belə ki, hələ də heç nə aydın deyil.

Tarasov qiymətin endirilməsi ilə bağlı heç nə deməyərək, əksinə artmasının mümkünlüyünə işarə edib. "Ümid edirəm ki, erməni istehlakçısı hər hansı bir qərardan narahatsız olmayacaq. Lakin mən istisna etmirəm ki, qazın qiyməti artacaq", deyən rus analitiki qarşıda aparılacaq danışıqların erməni-rus münasibətlərinin daha ciddi məsələlərdə indikatoru olacağını bildirib.

**Rövşən RƏSULOV**



# Fransa Vidadi İsgəndərli ilə bağlı tələblərə ölçü götürməlidir

*Terror və qeyri-sabitliyə çağıran ünsürlər beynəlxalq qanunlara qarşı çıxdıqlarına görə, müvafiq cəzalar almalıdırlar*

***Uzun müddətdir ki, Avropa ölkələrində saxta yollarla "siyasi mühacir" statusu almış ünsürlər, istər Azərbaycan hakimiyyətinə, istərsə də bütövlükdə, Azərbaycan dövlətinin maraqlarına qarşı ən çirkin kampaniyalar aparır, o cümlədən, dövlət çevrilişi, anarxiya və terror çağırışları edərək, bu vasitələrlə nökərçilik etdikləri donor-maliyyə təşkilatlarına yarınmağa çalışırlar.***

Azərbaycan cəmiyyəti dəfələrlə bu tiplərin, xüsusilə, erməni lobbisinin təlimatları əsasında fəaliyyət göstərən xarici qurumlardan aldıqları qrantlar üstündə açıq savaşa çıxdıqlarını, hətta bir-birlərini ən ağır ifadələrlə təhqirlərə məruz qoyduqlarını görüb. Bu isə, onu göstərir ki, belələri, sadəcə, "müxalif baxışlı siyasi mühacir" adı altında guya hakimiyyətlə mübarizə apardıqlarını xarici ağalarına nümayiş etdirirlər. Əslində, onları maraqlandıran yeganə amil kirli və xəyanətlər bahasına qazandıqları pul-paralardır.




### Vidadi İsgəndərli Fransada saxta yollarla "siyasi mühacir" statusunu alıb, özünü "dissident" kimi təqdim etsə də...

Belə ünsürlərdən biri də keçmişi kifayət qədər çirkli və qaranlıq olan, "gücünü" şərböhtan, mənəviyyatsızlıq və ləyaqətsizliklə "ölçən" Vidadi İsgəndərlidir. Artıq onun barəsində kifayət qədər materiallar, açıqlama və münasibətlər verilib və rüsvayçı şəxsiyyəti barədə, demək olar ki, hər kəs məlumatlıdır. Digər məqam budur ki, hazırda Fransada saxta yollarla siyasi sığınacaq alıb, özünü "dissident" kimi təqdim edən bu rəzil məxluq adıçəkilən ölkədə aşkar şəkildə Azərbaycanda sabitliyi pozmağa, terror törətməyə, cinayətlərə əl atmağa, ümumiyyətlə, qanunlara zidd olan hər şeyi tətbiq etməyə sosial şəbəkələr üzərindən çağırışlar edir. Ancaq onun bu qanunsuz əməllərinə Fransa dövlətinin müvafiq qurumları heç bir ölçü götürmürlər. Halbuki bu cür əxlaqsızlar və cinayətkarlar barədə onlarda kifayət qədər məlumatlar var.

### Fransanın hüquq-mühafizə orqanları Vidadi İsgəndərliyə - başqa dövlətdə oturub, digər dövlət üçün terror çağırışları edən bir cinayətkara, necə deyərlər, yenidən nəzər yetirməlidirlər

İlk növbədə, V.İsgəndərli kimi cinayətkarın layiq olduğu cəzasını almaq üçün Fransanın Azərbaycandakı səfirliyinə müvafiq sorğular göndərilməli, Fransa dövlətindən, rəsmi olaraq, onun barəsində tədbirin görülməsi tələb edilməlidir. Bu, Azərbaycan xalqının iradəsinə qarşı hörmətsizliyin qarşısının alınması üçün vacib amillərdəndir. Əgər bu ünsür Fransa dövləti tərəfindən sığınacaq alıbsa, demək, onun barəsində müəyyən materiallar da mövcuddur və Fransanın hüquq-mühafizə orqanları V.İsgəndərliyə - başqa dövlətdə oturub, digər dövlət üçün terror çağırışları edən bir cinayətkara, necə deyərlər, yenidən nəzər yetirməlidirlər.

### Fransada Vidadi İsgəndərliyə sözügedən şəraitin yaradılması qətiyyən yolverilməzdir!

Fransa dövləti, ona görə bu addıma getməlidir ki, ən azından, öz daxilində davam edən məlum hadisələrdən nəticə çıxarmalıdır. Həmçinin, insanları zorakılığa, terror törətməyə çağırmaq, qeyri-konstitusion davranışlara sövq etmək, suveren xalqın iradəsinə, demokratiya normalarına, eləcə də, beynəlxalq qanunvericiliyə ziddir. Bu baxımdan, şübhəli şəkildə Fransada "siyasi sığınacaq" alaraq, özünü "dissident" elan edən, bu ölkədə yaşayaraq, Azərbaycanın dövlət institutlarını, simvollarını ən eybəcər və insanlıq çərçivəsinə sığmayan formada təhqir, təhdid edən, xalqı dövlət çevrilişinə çağıran V.İsgəndərliyə sözügedən şəraitin yaradılması qətiyyən yolverilməzdir!

Fransa dövləti və hakimiyyəti, onu da dərk etməlidir ki, V.İsgəndərli Azərbaycanda yaşadığı dövrlərdə heç bir siyasi fəaliyyət göstərməyib, heç bir siyasi proseslərdə ən sıravi siyasətçi kimi çıxışlar etməyib və buna görə də, ümumiyyətlə, "siyasi mühacir" statusunu daşıya bilməz. Həmçinin, V.İsgəndərli vaxtilə dövlət orqanlarında işlədiyi vaxt, ciddi və yolverilməz nöqsanlara yol verdiyinə görə, işdən çıxarıldıqdan sonra, Azərbaycanda pozuculuq fəaliyyətinə başlayıb, sosial şəbəkələrdə iğtişaşlar törədəcəyi ilə bağlı təhdid, təhqir dolu materiallar yerləşdirib.

### Psixiki pozğunluğu olan Vidadi İsgəndərlinin bəlli davranışları, bilavasitə Azərbaycanın dövlətçilik maraqlarına, bu dövlətçiliyi göz bəbəyi kimi qoruyan Azərbaycan xalqına qarşı açıq təxribatdır

Bu kimi faktlar isə, onun Azərbaycan xalqının iradəsinə göstərdiyi və yumşaq dillə desək, hörmətsizliyinin bariz sübutudur. Eyni zamanda, onun bu cür davranışları, belə deməyə əsas verir ki, psixoloji durumu da yerində deyil və adekvatlığa cavab vermir. Nəticədə, V.İsgəndərlinin bəlli davranışları, bilavasitə Azərbaycanın dövlətçilik maraqlarına, bu dövlətçiliyi göz bəbəyi kimi qoruyan Azərbaycan xalqına qarşı açıq təxribatdır.

Beləliklə, Fransa dövləti və hakimiyyəti anlamalıdır ki, bu cür ünsürlərin həmin dövlətdə "siyasi sığınacaq" tapması heç bir məntiqə uyğun gəlmir və onun barəsində edilən şikayət və müraciətlərə rəğmən, ölçülərin götürülməməsi Fransanın Azərbaycana münasibətindəki səmimiliyini böyük sual, habelə, şübhə altına almaqdadır. Bütün bunlardan nəticə çıxarmalı olan Fransa dövləti, bu ölkənin müvafiq və aidiyyatı qurumları V.İsgəndərli barədə onun terrora, iğtişaşlara, qeyri-sabitliyə, anarxiyaya və zorakılığa yönəlmiş çağırışlarına diqqət yetirməli, lazımi tədbirlərini həyata keçirərək, müvafiq və gərəkli addımlarını atmalıdır!

***Rövşən NURƏDDİNOĞLU***

# Əli Kərimli "Milli Şura"nı əvəzləmək istəyir - yeni "hərəkat" planı

*Yaxud Cəmil Həsənlidən bir şey çıxmadı*

***AXCP sədri Əli Kərimlinin trolları vasitəsi ilə sosial şəbəkələrdə var-gəl etməsi, artıq kimsəyə qaranlıq qalmadı. Lakin bir müddət susqunluğundan sonra onun yenidən "Facebook", "YouTube" və s. sosial şəbəkələrdə canlı yayıma çıxması, eləcə də, Avropada "siyasi mühacir" adı altında fəaliyyət göstərən siyasi dəllalların efirlərinə çıxaraq, "inqilab" eyforiyasına düşməsi bir sıra məqamları ortaya çıxarmaqdadır. İlk növbədə, xatırlaya bilərik ki, bu dəfə də Qərbdəki havadarlarına arxalanan AXCP sədri növbəti dəfə 2005-ci ilin ab-havasına qayıtmağı xəyal edir.***



### Utopik, eləcə də, tipik çayxana şivənçiliyi

Məhz həmin dövrlərdə də küçə müxalifətçiliyi edən Ə.Kərimli və digər radikal müxalifət təmsilçiləri tərəfdarlarının başları üzərinə o zamankı ABŞ prezidenti Corc Buşun şəkillərini qaldırmağı əmr etmişdilər. Guya bununla, ABŞ da daxil olmaqla, Qərbə "hazırlıq" siqnallarını ötürdüklərini sanan qarağürühçular, nəticədə, gözləmədikləri halla qarşılaşdılar - Qərb, Azərbaycan demokratiyasına və bu demokratiyanı inkişaf etdirən hakimiyyətlə iş birliyi aparmağı daha vacib faktor kimi qəbul etdi.

Yəqin ki, AXCP sədri bu dəfə də özünü sözügedən istiqamətdə və "yeni müxalifətçilik ampluasında" sınamaq qərarına gəlib və Avropanın "söyüş müxalifəti" ilə eyni qazandan yeyib, Azərbaycan hakimiyyətinə və dövlətinə qarşı çıxmağı planlaşdırır. Əbəs deyil ki, Ə.Kərimli, demək olar ki, günaşırı şəkildə onların "qonaqlarına" çevrilməkdədir. O, bu vasitə ilə "yeni hərəkat" yaradılmasının "vacibliyindən" dəm vurur, ölkədə "xalq üsyanı" deyilən utopik, eləcə də tipik çayxana şivənçiliyi yaradacağına inanır. Hətta Kərimlinin yaxın vaxtlarda yarandığı gündən ölü doğulan "Milli Şura"nı buraxıb, "yeni hərəkat" yaradacağı ilə bağlı dolayı, həmçinin, birbaşa fikirləri də diqqətdən yayınmır.

### Əli Kərimlinin yeni "Cəmil Həsənlisi" Mehman Əliyev olacaq..?

Həmçinin, Ə.Kərimlinin siyasi müstəvidə heç bir uğura imza ata bilməyən C.Həsənlidən yaxa qurtarmaq istəyi də özünü büruzə verməkdədir. Onun bu dəfə yeni "Cəmil Həsənli" kontekstində Mehman Əliyev kimi adamlardan istifadə edəcəyi barədə informasiyalar da məlum olmaqdadır. Necə deyərlər, Ə.Kərimli, artıq etiraf edir ki, nə "Milli Şura"dan, nə də C.Həsənlidən bir şey çıxmadı. Lakin bütün bunlar qalsın bir tərəfə...

Fəqət, yenə də diqqətçəkən məqam isə budur ki, Qərbdəki bəzi dairələr, istərsə də, onların Azərbaycanda fəaliyyət göstərən Ə.Kərimli tipli agentura şəbəkəsi "inqilab" adı altında ölkəmizdə öz çirkin maraqlarını reallaşdırmaq məqsədlərindən əl çəkmək niyyətində olmadıqlarını göstərirlər.

### Qərbin normal düşüncəli siyasi çevrələri, heç bir halda nə Əli Kərimliyə, nə də onun son vaxtlar efirlərinə çıxdığı "söyüş müxalifəti"nə qətiyyən bel bağlamırlar

Qərbin özündə də kəskin fikir ayrılıqları və ziddiyyətlər mövcuddur. Daha doğrusu, istər ABŞ-da, istərsə də, Avropanın bir sıra aparıcı siyasi dairələrində fəaliyyət göstərən iqtidar təmsilçiləri, birmənalı olaraq, Azərbaycan hakimiyyəti ilə əlaqələrini, nəinki saxlamaq, o cümlədən, davamlı qaydada inkişaf etdirmək marağındadırlar. Onların qarşısına çıxan digər qüvvələrin isə bu iqtidarlara nə gücləri çatır, nə də digər imkanları. Bir sözlə, bu gün Qərbin aparıcı siyasiləri, bütövlükdə, Azərbaycan hakimiyyəti ilə sıx münasibətlər saxlamağa, iqtisadi və s. sahələrdə ölkəmizlə əlaqələrini qurmağa səy göstərirlər. Belə olan halda, bəri başdan qənaətə gəlmək mümkündür ki, Ə.Kərimlinin planları yenə də sürətlə fiaskoya doğru yuvarlanır.

Beləliklə, Qərbin normal düşüncəli siyasi çevrələri, heç bir halda, nə Ə.Kərimliyə, nə də onun son vaxtlar efirlərinə çıxdığı "söyüş müxalifəti"nə qətiyyən bel bağlamır. Əksinə, rədd edir və əgər bu reallıq ortadadırsa, hətta AXCP sədrinə anti-Azərbaycan dairələrindən dəstək göstərilərsə belə, onun yenidən küncə sıxışdırılacağı mütləqdir.

***Rövşən RƏSULOV***

# "Küçədən gəlmiş bir adam elə küçəyə də gedəcək"



"Ümumiyyətlə Nikol Paşinyan Ermənistanda hakimiyyətə necə gəlibsə, elə də gedəcək". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib. Politoloqun sözlərinə görə, bütün hallarda Paşinyan guya rəngli inqilab üstündə gəlib. Onun hakimiyyətdən getmə ehtimalı 2019-cu ildə baş tuta bilər. Bu proseslər yəqin ki, may ayından sonra baş verəcək. Amma hadisələrin gedişi göstərir ki, əvvəlki hakimiyyət elə-belə təslim olmaq istəmir. Çünki onların maliyyə imkanları böyükdür. Eyni zamanda onların cəmiyyətdə hələ ki, müəyyən gücləri var. Ona görə də bu qarşıdurma bütün hallarda Paşinyanın xeyrinə deyil. Ümumiyyətlə Paşinyan siyasətçi deyil. Yəni o küçədən gəlmiş bir adamdır və yəqin ki, elə küçəyə də gedəcək. Hadisələrin gedişi Paşinyanı hakimiyyətdən tez yıxa bilər. Amma mən bunu may ayından tez gözləmirəm". Qeyd edək ki, Ermənistanda sosial şəbəkələrdə yer alan xəbərlərdə Xankəndini yenidən etiraz dalğasının bürüdüyü bildirilir. Artıq bir neçə gündür şəhərin mərkəzi küçələrində müxtəlif təbəqələrdən olan əhalinin iştirakı ilə mitinqlər, etiraz aksiyaları və yürüşlər keçirilir.

# Qədim dastanlarımızda qadın hüquqları

***Dastandakı analar da oğulları yolunda hər əzaba dözməyə hazırdırlar. Cəfakeş analardan Dirsə xanın xatunu və Burla xatunu misal göstərmək olar.***

"Qazan bəg oğlı Uruz bəyin dustaq oldığı boy"da da Burla xatun oğlunu atası ilə ova yollayır.

Beləliklə, dastanın bütün boylarında səmimi valideyn-övlad münasibətləri görürük. Bu, bir daha sübut edir ki, böyüyə hörmət eləmək, valideynin ehtiramını saxlamaq oğuzların ta qədimdən bu günə qədər qoruyub-saxladıqları mənəvi dəyərlərdəndir.

Qırğızların "Manas" dastanında qadın evin namusunun qurucusudur. Qəhrəmanlar əxlaqa zidd hərəkət etdikləri zaman qadın onlara mane olur. Qazaxlarda qadına verilən dəyər bu atalar sözü ilə ən gözəl şəkildə izah olunmuşdur: "Birinci zənginlik sağlamlıq, ikinci zənginlik qadındır". Bütün türk dastanlarında sarsılmaz bir hörmət, sevgi və sədaqət vardır. Bəxt evinə girdiyi gün murad alıb-vermədən tək qalan qadın (gəlin) əri gələnə qədər onu gözləyəcəyinə və üzərinə bir erkək milçək belə qondurmayacağına and içirdi. Qadının müharibədə düşmənin əlinə keçməsi böyük bir zəlalət sayılırdı. Dastanların heç birində şəhvəti xatırladan çirkin hadisələrin olmaması xüsusi vurğulanmasına ehtiyac duyulan vacib bir mövzudur. "Oğuz kağan" dastanında təcavüz edənlərin öldürüldüyü və ya gözlərinə mil çəkildiyi ifadə edilərkən, farsların məşhur dastanı "Şahnamə"də bu cür əxlaqsızlıqların hekayət edildiyi ortadadır. Nümunə üçün: "Şahnamə"nin qadın qəhrəmanlarından olan Südabə Səyavuşa aşiqdir və ona çirkin təkliflərdə bulunur: "Tez ol, gəl. Kimsənin xəbəri olmadan məni bir kərə sevindir. Gəncliyimin günlərini təzələndirib, ondan mənə yenidən hədiyyələr ver". Əlbəttə ki, Banıçiçəklə buradakı qadın tipini qarşılaşdırmaq olmaz.

İranlı tarixçilər də türk qadınlarının əxlaqi təmizliyini daim mədh etmişlər. İbn Bətutə də elə bu şəkildə öz xatirələrini nəql edir: "Burada yaman bir hala şahid oldum ki, o da türklərin qadınlara göstərdiyi hörmətdir. Burada qadınların qiyməti və dərəcəsi kişilərinkindən çox üstündür". İslamiyyətdən əvvəl türk cəmiyyətində qadınsız bir iş görülməzdi. Daha əvvəllərdə də, qeyd etdiyimiz kimi, qadın kişini kamil edəndir. O, hər zaman kişinin yanındadır. Xanların buyuruqları yalnız "Xaqan buyurur ki..." ifadəsi ilə başlamazdısa, qəbuledilməzdi. Xarici dövlət elçilərinin qəbulunda xatun da xaqanla bərabər olurdu. Toy-bayramda qadın xaqanın solunda oturar, siyasi və idarəetmə mövzularındakı görüşlərini bəyan edərdi. Qadınlar müharibə məclislərinə də qatılırdılar. Məsələn, Böyük Hun İmperatorluğu adına Çinlə sülh müqaviləsini Mete xanın xatunu imzalamışdır.



Türk qadını, başqa cəmiyyətlərdə olduğu kimi, təzyiq altında tutulmur və alçaldılmırdı. Qadın ucalığına inamın bariz nümunəsi kimi qeyd edək ki, Altay dağlarının ən yüksək təpəsinə "Qadın başı" adı verilərək, sanki gələcəyə bir işarış göndərilmişdir. İslamaqədərki türk cəmiyyətlərində qadına belə münasibət var ikən, türk olmayan millətlərdə qadının vəziyyəti ürəkyandırıcı halda idi.

Cahiliyyət dövrü ərəblərində qadının əri yanında dəyəri alınıb-satılan bir maldan fərqsiz idi. Ərəb kişisi qadınla bir yerdə oturmaz, onunla yeyib-içməzdi. Ərəb cəmiyyətində qadının miras haqqı yox idi. Halbuki türk qadını miras haqqına sahib idi. Məsələn, yakutlarda qadının özünə aid mülkü olardı. Buna "and" və ya "səmsə" adı verilirdi. Qadının bundan istədiyi kimi istifadə etmək hüququ var idi.

Elə bu dönəmlərdə gəlin yenə qadınların başqa cəmiyyətlərdəki vəziyyətlərinə nəzər yetirməkdə davam edək. İngilislərdə, bəlli bir zamanda, qadın murdar bir varlıq sayılırdı. Məsihilər isə qadına şeytan gözü ilə baxarmışlar. Britaniyada qadın murdar bir varlıq sayıldığı üçün "İncil"ə əl vurmazdı. Qadınlar "İncil"i oxumaq haqqına Honde dövründə malik olmuşlar.

1888-ci ildə Vestminster kilsəsində verilən vəzlərin birində belə söylənilir: "Bundan 100 il əvvələ qədər, qadın kişinin süfrəsinə oturma haqqına sahib olmadığı kimi, soruşulmadan sözə cavab verməsi də caiz deyildi. Əri başı üzərində bir dəyənək asardı ki, arvadı nə zaman əmrini yerinə yetirməzdisə, ondan istifadə edərdi. Qadının sözü qızlarına keçməzdi. Oğlanları isə analarına ev içində xidmətçidən başqa dəyər verməzdilər".

Çində boşanma haqqı yalnız kişiyə məxsus idi, qadının belə bir haqqı yox idi. Türk qadını isə bütün bu haqlara sahib idi. Qadının da boşanma haqqı var idi. Qədim türk qadını Roma qadınından çox daha artıq haqqa sahib idi. Roma hüququnda qadın öz malına hökm edə, vəsiyyət eləyə bilməzdi. Romalı qadın Justinin dövrünə qədər tam bir əsirlik həyatı yaşamışdır. Romada dul qadının yenidən ailə qurması belə günah sayılırdı.

Çində yeni doğulmuş uşaq oğlan olsaydı, bahalı qumaşlara, qız isə bez parçalarına sarılardı. Farslarda özlərinə tay tapan qızlar günahkar sayılırdılar. Orada qanı qarışdırmamaq üçün yaxın qohumlarla evlilik məqsədəuyğun görülürdü. Buna görə anaları, qız və bacıları ilə evlənmək adəti də ortaya çıxmışdı. Həmin şəkildə cahiliyyət dövrü ərəblərinin qız uşaqlarını diri-diri basdırmaları da acı həqiqət idi. Qız uşağına sahib olmaq şərəfsizlik sayılırdı. Türk qızları isə camilərin şərəfli fərdləri idi. Türk millətindən başqa qadınları alçaltmayan, xor görməyən başqa bir xalq olmayıb. Türk qadınının belə ehtişam içində və hörmət görərək, yaşaması türk xarakter və mədəniyyətinin yüksək dəyərini ifadə edir.

Ulu Öndər Heydər Əliyev demişdir: "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqına və bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının yaranmasından 1300 il keçir. Oğuz türklərinin tarixini əks etdirən "Kitabi-Dədə Qorqud" yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur. "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli və ən parlaq abidəsidir. "Kitabi-Dədə Qorqud" dastanlarının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir. Oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli-mənəvi dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla, haqlı olaraq, fəxr edə bilər. Dastanın məzmununu, mənasını və onun hər kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu, bizim ana kitabımızdır və gənclik bu kitabı nə qədər dərindən bilsə, milləti, xalqını, vətənini və müstəqil Azərbaycanı bir o qədər də çox sevəcəkdir."

Dövlət başçısı İlham Əliyev deyir: "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının milli sərvətidir. Bu əsərdə Azərbaycan xalqının keçmiş həyat tərzi, məişəti, psixologiyası əks olunmuşdur. Əsərin qəhrəmanlarının adlarını Azərbaycanın 8 çoxsaylı yaşayış məntəqələrində görmək olar. Bu əsərdə Azərbaycan toponimləri əks olunmuşdur. Bir sözlə, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalq ədəbiyyatının yazılı abidəsidir.

2015-ci ildə Azərbaycan xalqının mədəni sərvətlər xəzinəsində müstəsna yer tutan və əsrlərdən bəri milli-mənəvi varlığın ayrılmaz tərkib hissəsinə çevrilən "Kitabi-Dədə Qorqud" abidəsinin alman şərqşünas alimi Fridrix fon Dits tərəfindən üzə çıxarılması, nəşr edilməsi və dünya elm aləminə tanıdılmasının 200 illiyi tamam olur. Ötən müddət ərzində, "Dədə Qorqud" dastanları ilə bağlı çox sayda araşdırmalar aparılmış və qorqudşünaslığın ayrıca sahə kimi formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. 2000-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO xətti ilə beynəlxalq səviyyədə təntənəli qeyd edilməsi abidənin tədqiqi tarixində yeni mərhələnin başlanğıcı olmuşdur. Milli-mədəni irsin qorunub-yaşadılması və yeni nəsillərin azərbaycançılıq ruhunda tərbiyə olunmasında "Dədə Qorqud" dastanlarının böyük əhəmiyyəti vardır.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 28 dekabr

## Kiyevdə 1 milyon dollarlıq qızıl müsadirə olunub



Ukraynanın Dövlət Fiskal Xidmətinin vergi polisi Kiyevdə keçirdiyi əməliyyat nəticəsində dəyəri bir milyon dollara yaxın 53 kiloqram çəkidə qızılı müsadirə edib. Xidmətin yaydığı məlumata görə, qızılların böyük əksəriyyəti Türkiyədən qaçaqmalçılıq yolu ilə gətirilib. "Şəbəkə" adı altında keçirilən əməliyyat zamanı məlum olub ki, Kiyev şəhəri və vilayətində 9702 qızıl məhsulu gömrükdən gizlədilərək Ukraynaya gətirilib.

## İmmun sistemi formalaşmamış körpələri öpmək məsləhət deyil



Ailə üzvləri, yaxın qohumlar tərəfindən körpələrin üzündən öpmək bir adət halını alıb. Əslində isə bu, gigiyenik baxımdan heç də düzgün deyil. AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyevin dediyinə görə, xüsusilə yeni doğulan körpələrin başqalarının qucağına verilməsi, onlarla təmasda olması, üzündən öpülməsi məsləhət görülmür: "Uşaqlarda özünüqoruma funksiyası ən azı 2 yaşından sonra formalaşır. Körpəyə əllə təmas da onun sağlamlığı üçün böyük risk mənbəyi hesab olunur. Ona görə də nə qədər ki, körpədə immun sistemi hələ tam formalaşmayıb, kənar adamların onunla təması minimuma endirilməlidir".

Ağız-burun bölgəsi virus və bakteriyalar üçün bədənə ilk daxil olma nöqtəsidir. Buradan alınan hər cür bakteriya və virus öpülən körpələrə keçə bilər və onların immun sistemi zəif olarsa, tez-tez xəstələnə bilərlər. Nəfəs yolu infeksiyasına yoluxanların körpələrin öpməsi isə qətiyyən olmaz. Baş pediatr deyib: "İnsanın ağzında ən azı 450 növ bakteriya var. Bakterial və göbələk florası, ibtidailər, ümumiyyətlə canlı mikroorqanizmlərin hər biri xəstəlik törədə bilər".

Xüsusən xanımların körpələri öpərkən diqqətli olması lazımdır. Onların istifadə etdiyi dodaq boyası və digər kosmetik məhsullardakı kimyəvi maddələr körpənin həssas və nazik dərisini qıcıqlandırır və qızartı verir. Ona görə də valideynlər təsadüfi adamların, küçədə rastlaşdıqları dost-tanışların körpəni öpməsinə icazə verməməlidirlər.

## Luka Modriç Xorvatiyada ilin ən yaxşı idmançısı seçilib

Zaqrebdə Xorvatiya Olimpiya Komitəsinin mükafatlandırma mərasimi təşkil edilib. Mərasimdə futbol üzrə Xorvatiya millisi ilin ən yaxşı komandası seçilib. Ölkənin ən yaxşı idmançısı adını futbolçu Luka Modriç və atlet Sandra Perkoviç qazanıblar.



Xorvatiya milli komandasının kapitanı və "Ballon d'Or" qalibi Luka Modriç ölkəsində bu mükafatı alan ilk futbolçudur. Ardıcıl 7 ildir ən yaxşılar arasında yer alan Sandra Perkoviç beşqat dünya çempionudur.

## "Çelsi"nin əfsanəsi olmaq istəyirəm"



"Çelsi"nin futbolçusu Eden Hazard London klubunun əfsanəsi olmaq istəyir. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, bu barədə o, London klubu ilə bütün turnirlərdəki 100 və 101-ci qollarını vurduğu "Uotford"la matçdan sonra deyib: "Bu qolu heç vaxt unutmayacağam. Amma biz hamımız daha artığını istəyirik. Qalib gələndə oyundan həzz alırıq. Mən "Çelsi"də mümkün qədər çox qol vurmaq istəyirəm. Lempard, Terri,Droqba kimi klubun əfsanəsi olmağa çalışacam. Bunun üçün bütün gücümlə hazırlaşıram".

Qeyd edək ki, Hazardla "Real"ın maraqlandığı iddia olunur. Ancaq belçikalı yarımmüdafiəçi son açıqlaması ilə"Çelsi"də qalmaq istədiyini bildirib.

## "Barselona" yeni transferini təqdim edib



"Barselona" yeni transferini rəsmən açıqlayıb. SİA-nın məlumatına görə, kataloniyalılar "Valensiya"dan icarəyə götürdüyü Ceyson Murilyonu ictimaiyyətə təqdim edib. Müqavilənin müddəti mövsümün sonuna kimi nəzərdə tutulub. Bunun üçün "Barselona" 2 milyon avrosundan keçib. "Barselona" 25 milyon avro ödəyərək, Kolumbiya millisinin üzvünü mövsümün sonunda ala bilər. Qeyd edək ki, 26 yaşlı futbolçu "Udineze", "Qranada", "Kadis", "Las Palmas" və "İnter" klublarında da çıxış edib.

## PSJ Canluici Buffon ilə müqaviləni uzadıb



Fransanın PSJ futbol klubu italyan qapıçı Canluici Buffon ilə müqaviləni uzadıb. AZƏRTAC TASS-a istinadla xəbər verir ki, Buffon PSJ klubu ilə "1+1" illik müqavilə imzalayıb. Qapıçı cari mövsüm klubda 13 oyundan 8-də qol buraxmayıb. PSJ Fransa çempionatında liderliyini qoruyub saxlayır və ən yaxın izləyicisini 13 xalla qabaqlayır.

Paris təmsilçisi UEFA Çempionlar Liqasının "C" qrupunda birinci olaraq 1/8 finala yüksəlib. Növbəti turda isə onlar İngiltərənin "Mançester Yunayted" klubuna qarşı oynayacaqlar. Qeyd edək ki, Buffon İtaliya millisinin heyətində 176 oyuna çıxıb və 2006-cı ildə Almaniyada keçirilən XVIII dünya çempionatının qalibi olub. Buffon "Yuventus" klubunun heyətində dörd dəfə İtaliya çempionluğunu bayram edib.

## BOK rusiyalı idmançıların medallarını geri qaytarmalarını tələb edir




Beynəlxalq Olimpiya Komitəsi (BOK) Rusiya Olimpiya Komitəsinə (ROK) rəsmi məktubla müraciət edərək bütün milli idman federasiyalarına bunu bildirməyi tələb edib ki, 2008, 2012 və 2014-cü illərin Olimpiya Oyunlarında dopinqdən istifadə etmələri faktı müəyyən edilmiş idmançılar mükafatları geri qaytarmalıdırlar. SİATASS agentliyinə istinadla xəbər verir ki, dələduzlarla eyni komandada və ya eyni heyətdə çıxış etmiş "təmiz" idmançılar da (yüngül atletika estafeti, bobsley dördlüyü) mükafatları geri qaytarmalı olacaqlar.

Yüngül atletikada rusiyalı olimpiyaçılar 2008-ci və 2012-ci illərin Yay Olimpiya Oyunları zamanı genişmiqyaslı təkrar yoxlama zamanı antidopinq qaydalarının pozulmasına görə cəzalandırılmış idmançılardan yalnız 5 nəfəri mükafatları qaytarıblar. BOK daha 24 medalın qaytarılmasını gözləyir.

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH ixtisası üzrə III kurs tələbəsi Rəhimli Hüseyn Əlifağa oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500